**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**MAGİSTRATURA MƏRKƏZİ**

***Əlyazması hüququnda***

**Qəhrəmanova Aysel Şaiq qızı**

# ***“Təbii inhisar subyektlərində qiymətlərin əmələ gəlməsi”***

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İstiqamət** **010000 “İqtisadiyyat”**

**İxtisas:** **012700 “Qiymətləndirmə”**

**Elmi rəhbər** **Magistr proqramının rəhbəri**

**prof. X.H.Kazımlı** **dos. B.C.Sadıqov**

**Kafedra müdiri** **prof.X.H.Kazımlı**

**B A K I – 2016**

## Mündəricaт


| | | Səh. |
|---|---|---|
| | **Giriş** | **3-6** |
| **Fəsil I.** | **Inhisar şəraitində qiymətlərin tənzimlənməsinin nəzəri-təcrübi əsasları** | **7-25** |
| **1.1.** | İnhisarların yaranması, inkişaf tarixi və formaları | **7-12** |
| **1.2.** | Təkmil rəqabət və inhisar bazarında qiymətlərin formalaşması xüsusiyyətləri | **13-18** |
| **1.3.** | Milli iqtisadiyyatın dövlət tənzimlənməsində təbii inhisarın rolu və onun tədqiqinin zəruriliyi | **18-25** |
| **Fəsil II.** | **Müasir dövrdə təbii inhisarların qiymətqoyma mexanizminin təhlili** | **26-48** |
| **2.1.** | Təbii inhisar sahələrində qiymətlərin dövlət tənzimlənməsinin qanunvericilik təminatı və onun müasir vəziyyəti | **26-34** |
| **2.2.** | Inhisarlar tərəfindən istehsal edilmiş məhsullara qiymətlərin formalaşması mexanizminin təhlili | **34-41** |
| **2.3.** | Təbii inhisar sahələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin spesifik cəhətləri və mexanizmləri | **41-48** |
| **Fəsil III.** | **Inhisarçı qiymətqoymaya dövlət müdaxiləsinin təkmilləşdirilməsi** | **49-76** |
| **3.1.** | Antiinhisar siyasətinin dünya təcrübəsi və onun əsas variantları | **49-57** |
| **3.2.** | Azərbaycan iqtisadiyyatında antiinhisar və qiymət siyasətinin əsas istiqamətləri | **58-63** |
| **3.3.** | Təbii inhisar şəraitində dövlətin qiymətlərə təsir mexanizminin təkmilləşdirilməsi | **63-76** |
| | Nəticə və təkliflər | **77-79** |
| | İstifadə olunan ədəbiyyat siyahısı | **80-81** |
| | Резюме | **82** |
| | Summary | **83** |

# Giriş

***Mövzunun aktuallığı.*** Respublika iqtisadiyyatı, o cümlədən sənaye müəssisələri uzun illər inzibati amirlik metodları ilə idarə edilmişdir. Belə ki, inzibati amirlik iqtisadiyyatında fəaliyyət göstərən təsərrüfat subyektlərinin iqtisadi məsuliyyəti və müstəqilliyi yox idi. Fəaliyyət göstərən bütün təsərrüfat subyektləri vahid mərkəzə, yəni müəyyən dövlət inhisarçı idarəetmə strukturuna tabe edilmişdir. Həmin dövrdə fəaliyyət göstərən təsərrüfat subyektləri iqtisadi maraq və sağlam, azad rəqabət prinsiplərindən tamamilə uzaqlaşdırılmışdır. Sənaye müəssisələri ancaq dövlət inhisarçı strukturlarının direktiv plan göstəricilərinin yerinə yetirilməsi kimi funksiyanı reallaşdırdılar. Inhisar istər iqtisadiyyat, istərsə də cəmiyyət üçün çox ciddi mənfi sosial-iqtisadi nəticələr doğurmuşdur ki, bu da post-sovet məkanında 80-ci illərdə yaranmış böhran vəziyyətinin başlıca səbəblərindən biri olmuşdur. Artıq imkanları məhdudlaşmış inzibati-amirlik yolu ilə iqtisadi səmərəliliyin tələb olunan səviyyəsini təmin etmək mümkün olmamışdır. Respublikamız tarixi - siyasi müstəqilliyini əldə etdikdən sonra qarşıda duran mühüm məsələlərdən biri milli iqtisadiyyatın formalaşması olmuşdur ki, bu da iqtisadi münasibətlərin özəyini təşkil edən mülkiyyət azadlığına, iqtisadi metodlarla idarə etməyə, iqtisadi məsuliyyətə və marağa, azad, sağlam rəqabətə və inhisarçılığın minimum səviyyəsinə əsaslanan tənzimlənən yeni iqtisadi sistemə - bazar iqtisadiyyatına keçidə istiqamətlənmiş tədbirlər kompleksinin reallaşdırılmasını zəruri etmişdir. Hazırda həyata keçirilən sosial - iqtisadi islahatlar istehlakçıların dəyişən müasir tələbatına tez bir zamanda uyğunlaşan yeni təsərrüfat modelinin formalaşmasına yönəlmişdir. Respublikamızda bazar iqtisadiyyatına keçid inhisarçılığın minimuma endirilməsi, inhisarçılıq meyllərinə qarşı antiinhisar siyasətinin formalaşması və düzgün həyata keçirilməsi, azad rəqabət prinsipləri əsasında yüksək keyfiyyətli malla təmin edilmə səviyyəsi ilə birbaşa bağlıdır.

Inhisarçılığın aradan qaldırılması və rəqabətin müdafiəsi, ölkə iqtisadiyyatında səmərəli, sağlam, azad rəqabət mühiti yaradır ki, bu mühit müəssisələri bazar tələbatını yüksək keyfiyyətlə təmin edən istehsal formalaşdırmağa, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinə istiqamətləndirir.

***Problemin öyrənilməsi səviyyəsi.*** Qarşıya qoyulmuş problemin həlli ilə bağlı bir çox məsələlər iqtisadi ədəbiyyatda öz əksini tapmışdır. Bu, bir tərəfdən elmi-nəzəri materiallardan, o cümlədən tanınmış iqtisadçı alimlərin müəllifliyi ilə hazırlanmış dərsliklərdən, dərs vəsaitlərindən, digər tərəfdən rəqabət və inhisarçılıqla bağlı qanunvericilik aktları toplusundan ibarətdir. Qeyd etmək lazımdır ki, inhisarçılıqla bağlı problemlər prof. X.H.Kazımlının, prof. A.Ş.Şəkərəliyevin və prof. Ə.İ.Bayramovun əsərlərində daha geniş tədqiq olunmuşdur. Lakin təbii inhisar şəraitində qiymətlərin müəyyən edilməsi, tənzimlənməsi və idarə edilməsi üzrə kompleks tədqiqat işi yerinə yetirilməmişdir.

***Tədqiqatın predmeti və obyekti.*** Tədqiqat predmeti kimi seçilmiş qiymətlərin tənzimlənməsi yolu ilə inhisarlara nəzarətin əhəmiyyəti bir tərəfdən yeni iqtisadi şəraitdə antiinhisar tənzimlənmənin iqtisadi siyasətdəki rolu, digər tərəfdən isə inhisarsızlaşdırma fəaliyyətinin təkmilləşdirməsi zəruriliyi ilə bağlıdır.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Tədqiqat mövzusunun başlıca məqsədi qiymətlər vasitəsi ilə inhisaçı fəaliyyətinin tənzimlənməsinin əsas istiqamətlərini müəyyən etməklə, onların reallaşması üzrə konkret tədbirlər sisteminin hazırlanmasından ibarətdir.

Qarşıya qoyulmuş bu məqsədə müvafiq olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- inhisarın mahiyyəti və onun formalarının araşdırılması,

- inhisarçı fəaliyyət və real bazar münasibətlərinin qarşılıqlı bağlılığının tədqiqi.

-inhisarçı fəaliyyətin sosial-iqtisadi nəticələrinin araşdırılması, və iqtisadi demokratiyanın qərarlaşması zəruriliyinin əsaslandırılması,

- inhisarın tənzimlənməsinin zəruriliyi və onun nəzəri əsaslarının müəyyən edilməsi,

- Azərbaycan iqtisadiyyatında antiinhisar tənzimlənmənin səmərəsinin təhlili və onun təkmilləşdirilməsinin əsaslandırılması.

***Tədqiqatın nəzəri-metodoloji əsası və informasiya bazası.*** Tədqiqatın nəzəri-metodoloji əsasını yerli və xarici ölkə alimlərinin inhisarçılıq və antiinhisar siyasət üzrə elmi əsərləri, Azərbaycan Respublikasının qanunvericiliyi təşkil edir. Tədqiqatın informasiya bazası Respublika ərazisində fəaliyyət göstərən təbii inhisar subyektlərinin büllitenlərindən, Dövlət Statistika Komitəsinin materiallarından, internet saytlarından və digər materiallardan ibarətdir.

***Tədqiqatın elmi yeniliyi*** aşağıdakılardan ibarətdir:

- təbii inhisar sahələrində inhisarlaşmanın qarşısının alınmasının iqtisadi cəhətdən səmərəsizliyinin əsaslandırılması;

- təbii inhisarlara qarşı dövlət siyasətinin əsas variantlarının müqayisəli şəkildə təhlil olunması;

- inhisarçiliğin yumşaldılmasında qiymətlərdən istifadə variantlarının əsaslandırılması;

- təbii inhisar subyektlərinin istehsal etdikləri əmtəələrin (xidmətlərin) qiymətləri (tarifləri) arasında nisbətlərin tənzimlənməsi variantlarının araşdırılması;

- təbii inhisar subyektlərində qiymətlərin idarə edilməsi metodlarının əsaslandırılması,müvafiq təklif və tovsiyyələrin hazırlanması

***Tədqiqatın təcrübi əhəmiyyəti.*** Dissertasiyanın nəticələrinin təcrübi həyata keçirilməsi əsasən inhisarçılığın aradan qaldırılmasında və ya yumşaldılmasında qiymətəmələgəlmə probleminin həllinə istiqamətləndirilmişdir. Tədqiqat nəticəsində əldə edilmiş elmi nəticələr müvafiq istiqamətdə çalışan tədqiqatçılar üçün mənbə və gələcək araşdırma mövzusu, qiymətlərin səmərəli idarə edilməsinə yönəldilən təkliflər isə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər üçün dəyərli yardımçı vasitə ola bilər.

***Dissertasiyanın quruluşu və həcmi.*** Dissertasiya işi girişdən, üç fəsildən, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyatdan (  adda) ibarət olmaqla tam həcmi  83 səhifədən ibarətdir. Dissertasiya işində 3 şəkil və 4 cədvəl göstərilmişdir.

## Fəsil I. Inhisar şəraitində qiymətlərin tənzimlənməsinin nəzəri-təcrübi əsasları.

### 1.1. İnhisarların yaranması, inkişaf tarixi və formaları.

Tarixi-xronoloji prizmadan ilk dəfə sırf iqtisadi mənada inhisarçılığın real olaraq-tətbiqini merkantilistlər həyata keçirmişlər. Məqsədlərindən asılı olmayaraq xarici ticarətin sərt dövlət nəzarətinə götürülməsi məzmunca dövlət inhisarının tətbiqi demək idi.

Iqtisadi fikir tarixində inhisarın meydana çıxması, mahiyyəti və ictimai-iqtisadi münasibətlər sistemində oynadığı rol barədə müxtəlif konsepsiyalar irəli sürülmüşdür.

İnhisarçılıq - təsərrüfat subyektlərinin yolverməz fənd və üsullardan istifadə etməklə yüksək mənfəət götürmək məqsədi ilə azad rəqabətə yol verilməməsinə, onun məhdudlaşdırılmasına və aradan qaldırılmasına yönəldilən fəaliyyətdir. Təsərrüfat subyektlərinin fəaliyyəti nəticə etibarı ilə azad rəqabətə qarşı yönəldilib. Azad rəqabətin məhdudlaşdırılmasına və aradan qaldırılmasına yönəldilmiş inhisarçılıq fəaliyyətini iki qrupa bölmək olar:

1. Inhisarın inkişafının ilkin mərhələsində inhisara daxil olan təsərrüfat subyektləri üçün qiymətqoymanın razılaşdırılması, xammal və satış bazarlarının bölüşüdrülməsi və mənfəət götürmək üçün əlverişli şərait yarada biləcək digər məsələlərdə razılıq əldə edilməsinə yönəldilən fəaliyyətlər;

2. Bazardakı hakim mövqelərindən istifadə edərək inhisar qiyməti aləti vasitəsi ilə rəqabətin sıxışdırılmasına yönəldilmiş fəaliyyətlər.

Bu fəaliyyəti nəticəsində inhisarçı müəssisə istehsalda və satışda əsassız surətdə üstünlüyə malik olur. Bu cür üstünlük şəraitində müəssiəsinin davranışı inhisar nəzəriyyəsi ilə izah olunur. Inhisarçı müəssisəsinin istehsal xərclərinin formalaşdırılması, öz məhsuluna qiymət qoymanın prinsipləri və istehsal həcminin müəyyən edilməsi inhisar nəzəriyyəsinin məğzini təşkil edir. Inhisar

nəzəriyyəsi inhisarı müəyyən növ məhsulun yeganə istehkalçısı götürməklə abstraksiya yolu ilə nəzəri ümumiləşdirmə aparır. Buna görə də xalis inhisarı nəzəri cəhətdən izah etmək olar. Çünki, müəyyən növ məhsulun yalnız bir müəssə tərəfindən istehsalı və satışının həyata keçirilməsi abstraksiyadır. Ən azı ona görə ki, həmin növ məhsulun xarici istehsalçısı və satıcısı var.

İnhisar nəzəriyyəsinə görə inhisarçı müəssisənin davranışı aşağıdakı amillərin təsiri altında formalaşır:

1.Qiyməti fasiləsiz yüksəltmək imkanının məhdudluğu, bütün digər istehsalçılar kimi inhisarda istehsal qərarını qəbul edərkən bazar tələbini, öz istehsal xərclərini nəzərə almaq məcburiyyətindədir.

2.Bazarın bir hissəsini itirmək təhlükəsi; bu təhlükə olmadıqda o qiymətin yüksəldilməsi qərarını qəbul etdikdə belə məhsul buraxılışının həcminə tam nəzarət edir.

Inhisar nəzəriyyəsinə görə inhisarın maksimum mənfəət götürməsini təmin edən məhsul buraxılışının həcmi rəqabət şəraitində mövcud olan prinsipə, son həd gəlirlərinin və son hədd xərclərinin bərabərliyinə əsaslanır. Iqtisadiyyatda inhisarçılığın əhatəliyi baxımından aşağıdakı kimi quraşdırmaq olar:

1.Istehlaкçı inhisarçılığı və ya monopsoniya: - bazarda bir alıcı, çoxlu sayda satıcı olur. Istehlakçı inhisarçılığı da digər inhisarçılıq növləri kimi mənfi nəticələrə səbəb olur. İri istehlakçı tərəindən satın alınan məhsullarının qiymətlərinin süni surətdə aşağı salınması nəticəsində yüksək mənfəət götürmək, müqabil tərəfə əlverişsiz müqavilə şərtlərini qəbul etdirmək üçün şərait yaranır. Bununla əlqədar olaraq iqtisadiyyatda monopsoniyaya qarşı da mübarizə tədbirləri işlənib hazırlanır.

2.Texnoloji inhisarçılıq: - Inhisarın obyekti bu və ya digər məhsulun hazırlanması üsulu olduğu halda yaranan inhisarçılıq texnoloji inhisarçılıqdır. Texnoloji inhisar kimi BTT-nin müəyyən istiqamətində liderliyi ələ keçirmiş

müəssisələr çıxış edirlər. Texnologiyada liderlik edənlər son nəticədə öz məhsullarının rəqabətliyini təmin edirlər. Buna görə də müəyyən texnoloji yeniliyə sahib olan müəssisələr ondan maksimum faydalanmaq üçün inhisarçılıq davranışına yol verirlər. Inhisarçılığın bu forması müvəqqəti xarakter daşıyır.

3.Təbii inhisarçılıq: Xalq təsərrüfatının elə sahələri vsrdır ki, orada istehsal xərclərinə qənaət bilavasitə istehsalın iri miqyası ilə əlaqədardır.Təbii inhisar müəssisə istehsal səviyyəsində istehsalın artması nəticəsində maya dəyərinin azalması halında meydana çıxır. Şəkil 1.1-də istehsalın artması nəticəsində maya dəyərinin azalması şəraitində firmanın orta məcmu xərcləri göstərilib. Bu halda tək bir firma bütün istehsal həcmlərindən ən əsas orta xərclərə malikdir. Belə ki, istehsalın hər hansı səviyyəsində daha çox firmanın olması bir firmaya düşən istehsalın həcminin az olmasına və deməli orta məcmu xərclərin yüksək olmasına gətirib çıxarır.

Eyni zamanda həmin sahələrlə rəqabət aparmaq olduqca mürəkkəbdir və ya mümkün deyil. Belə sahələr təbii inhisar səhələridir. Əgər firma təbii inhisardırsa, onda yeni firmaların bazara daxil olub onun inhisarçı nüfuzunu azaltmaq təhlükəsi elədə böyük deyil. Adətən, firma mühüm sərvətin yeganə sahibi olmadıqda və yaxud dövlət tərəfindən himayə edilmədikdə özünün inhisarçı nüfuzunu qorumaqda çətinlik çəkir. Inhisarçının əldə etdiyi mənfəət digər firmaları da bazara daxil olmağa şirnikləndirir və nəticədə bazarda rəqabət yaranır. Bundan fərqli olaraq, təbii inhisarın olduğu bazara girmək cəlb edici deyil. Belə bazara girmək barədə düşünən firmalar gec-tez bazara girməklə onun yalnız bir hissəsini tuta biləcəklərini və nəticədə hər bir firmanın orta xərclərinin artacağını başa düşürlər.

Onlara ümumi istifadə təyinatlı xidmət sahələri, o cümlədən enerji, qaz, su təchizatı, rabitə və s. daxildir. Həmin sahəlrdə inhisarlaşmanın qarşısını almaq iqtisadi cəhətdən məqsədəuyğun sayılmır. Ona görə ki, istehsalın iki və daha çox

müəssisə arasında bölüşdürülməsi məhsul vahidinə düşən xərclərin artmasına səbəb olur. Bu baxımdan dövlət təbii inhisarlara qarşı davranışın aşağıdan spesifik variantlarını seçir.

1. Məhsula onun son hədd xərclərinə bərabər qiymət qoyulur və bui qiymətlə əhalinin tələbatının ödənilməsi müəssisə tərəfindən dövlət qarşısında öhdəlik kimi qəbul olunur.

2. Məhsula onun son hədd xərclərindən yüksək qiymət qoyulur və əvvəlində qeyd olunan öhdəlik qüvvədə saxlanılır. Bu variantın üstünlüyü odur ki, onun tətbiqi zamanı büdcə dotasiyasına ehtiyac yaranmır.

3. Bu variant əvvəlki iki variantın üzvi əlaqəsindən və ardıcıl tətbiqindən ibarətdir. Onu konkret olaraq qaz, su və enerji satışının timsalında şərh etmək olar. Həmin sahələrində əsas etibarilə əhali üçün nisbətən aşağı, müəssisə və təşkilatları üçün isə yüksək tariflər nəzərdə tutulur. Ona görə də bir tərəfədən tələbatın optimal strukturu təmin edilir, digər tərəfdən isə xidmətlərin ümumi istehsal xərcləri ödənilir.

4. Bu variant tenderlərin həyata keçirilməsinə əasaslanır. Tender dedikdə, məhsul və xidmətlərin istehsalı və eləcə də yerinə yetirilməsi üzrə potensial iştirakçıların sifarişçilərə göndərdiyi təkliflər əsasında aparılan müsabiqə başa düşülür. Bütün digər bərabər şərtlər daxilində sifarişçinin mənsub olduğu ölkənin dövlət büdcəsinə daha çox vəsait köçürməyi öz üzərinə götürən müəssisə tenderin qalibi elan olunur.

Bir qayda olaraq, qalib müəssisənin fəlaiyyətinə istər istehsal həcmi, istərsə də, qiymət səviyyəsi nöqteyi nəzərdən dövlət müdaxiləsi tədricən məhdudlaşdırılır və aradan qaldırılır. Ona görə də qeyd olan variantın tətbiqi şəraitində nisbətən az məhsul istehsal edilir və demək olar ki, istehlakın optimal strukturu təmin olunmur.

Şəkil 1.1.




Göründüyü kimi, təbii inhisar sahələrində son hədd xərcləri digər sahələrlə müqayisədə aşağıdır və inhisarçılar son hədd xərclərinin son hədd gəlirlərilə mənfəətin yüksəlməsinə səy göstərirlər. Bu da qiymət rəqabətinin yüksək həddə çatmasına səbəb olur. Rəqabət nəticəsində müəssisələrin müflisləşməsi baş verə bilər. Inhisarçı müəssisə bir müddət əvvəl fəaliyyətdə yaranmış itgiləri kompensasiya etmək üçün cari hökmranlıq dövründə qiymətləri diqtə edə bilər. Lakin dövlət təbii inhisarçılara müəyyən güzəşt və üstünlüklər versə də, mövcud coğrafi ərazidə tələbatın ödənilməsinə, göstərilən xidmətlərin keyfiyyətinə və qiymət səviyyəsinə nəzarət funksiyasını özündə saxlayır.

5. Təşkilati inhisarçılıq: - Inhisarçılığın bu forması istehlakçı birliklərinin formalaşdırılması yolu ilə meydana gəlir. Istehsalçıların müxtəlif sahə, sahələrarası və yaxud da regional təşkilat strukturlarını yaratmaqla inhisarçı meyllərinin miqyaslarını əhəmiyyətli dərəcədə genişləndirmək mümkün olur. Bu

isə bütövlükdə iqtisadiyyatın inhisarlaşma dərəcəsinin artmasına, texniki – texnaloji tərəqqinin sahə və ölkə miqyasında ləngiməsinə səbəb olur.

6. Istehsal inhisarçılığı: Müəyyən növ məhsulun istehsalının əsas hissəsinin məhdud miqdarda istehsalçının əlində cəmlənməsinə istehsal inhisarçılığı müəyyən məhsul istehsalçılarının birləşməsi və yaxud da müvafiq məhsulu istehsal edən müəssisədə kapitalın öz-özünə artması yolu ilə yaranır. Inhisarçılığın göstərilən forması bir sıra hallarda məhsuldar qüvvələrin inkişafını obyektiv nəticəsi kimi meydana çıxır. Çox zaman isə belə inhisarçılıq bilavasitə rəqabətin məhdudlaşdırılması və aradan qaldırılması məqsədlərinin reallaşdırılması üçün həyata keçirilir. İstehsalda inhisarın mahiyyətini üçü başlıca cəhətlə səciyyələndirmək olar: 1. Müəyyən çərçivədə bazar qiymətlərini diktə etmək imkanına malik olması. 2. Onun əlində istehsalın əhəmiyyəti hissəsinin təmərküzləşməsi sayəsində təsərrüfatın bir və yaxud bir neçə sahəsində hökmran olmaq vəziyyətinin təmin edilməsi. 3. Öz hökmranlığını iqtisadi cəhətdən realizə etməsi kimi yüksək inhisar mənfəətinin mənimsənilməsi.

7. Idarəetmə inhisarçılığı: Inhisarçılığın bu forması inzibati amirlik sisteminin xarakterik xüsusiyyətlərindən biridir. Burada inhisarçı şəkildə dövlət çıxış edir. Dövlət bütövlükdə sosialist təsərrüfatı mexanizmi vasitəsi ilə iqtisadiyyatı idarə etməklə həm müəssisələrin müstəqilliyini məhdudlaşdırır və məsuliyyətlərini olduqca azaldır, həm də müəssisələrin təsərrüfat əlaqələrini məhdudlaşdırmaqla son nəticələrə olan maddi maraqları azaldır. Sərbəst təsərrüfat əlaqələri yaratmağa imkan vermir. Beləliklə, iqtisadiyyat qeyri-səmərəli fəaliyyət göstərir. Həddindən artıq mərkəzləşdirilmiş planlaşdırma bürokratik təsərrüfat mexanizmin və səmərəsiz iqtisadi əlaqələrin hökm sürməsinə səbəb olur. Eyni zamanda iqtisadiyyatın idarə olunmasındakı inzibatçılıq təkrar istehsal fazaları arasındakı əlaqəni, mülkiyyət hüququnu pozur.

## 1.2. Təkmil rəqabət və inhisar bazarında qiymətlərin formalaşması xüsusiyyətləri.

İnhisarlaşma səviyyəsinə görə fərqlənən bazar strukturlarında qiymətlərin əmələ gəlməsi və tənzimlənməsi mexanizmlərində köklü fərqlər mövcuddur. Onları azad rəqabət və inhisar bazarlarının müqayisəsində daha aydın şəkildə görmək olar.

**Cədvəl 1.1.**

| № | Bazarın əsas parametrləri | Azad rəqabət | Inhisar |
|---|---|---|---|
| 1 | Satıcıların sayı | Çoxlu | Bir |
| 2 | Bazara giriş və çıxış maneələri | Yoxdur | Var (giriş yoxdur) |
| 3 | Bazar subyektlərinin bir-birindən asılılığı | Var | Yoxdur (müxtəlif növ asılılıq var) |
| 4 | Əmtəə sahibinin bazar qiymətinin müəyyənləşdirə bilməsi | Müəyyənləşdirə bilməz | Müəyyənləşdirə bilər |

Cədvəldən göründüyü кimi, müəssisə ölçülərinin onun inhisar mövqedə dayanmasının müəyyənedici meyarı kimi qəbul edilməsi bu kateqoriyanın dolğun əhatə etmir. Çünki, müəyyən növ əmtəə istehsalını öz əlində cəmlənmiş, hər hansı kiçik müəssisə də inhisarçı mövqedə dayana bilər və əksinə, iri müəssisələrin heç də hamısı inhisarçı mövqedə olmaya bilər.

Ikincisi, inhisarçı müəssisənin kontragentlərə və bütövlükdə cəmiyyətə öz maraqlarını diktə etməsi cəmiyyətin iqtisadi münasibətlərinin xarakterindən irəli gələ bilər. Belə ki, inzibati amirlik iqtisadiyyatı üçün məhz bu hal - inzibati təzyiq xarakteri almışdır. Göründüyü kimi burada müəssisənin ölçüsü heç də əhəmiyyətli deyil.

Ihisarçı mülkiyyətin mənimsənilməsində və reallaşmasında hökmran qüvvə kimi çıxış edir. Inhisar bazar məkanının müəyyən iştirakçıları tərəfindən

bu məkanın müəyyənedici hissəsinin ələ keçirilməsi və digər bazar münasibətləri iştirakçıların öz iradəsinin diktə edilməsidir.

"Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununda inhisarçılıq fəlaiyyəti aşağıdakı kimi müəyyən edilmişdir. " inhisarçılıq fəlaiyyəti – inhisarçılığın bu və ya digər forması olub, təsərrüfat subyektlərinin yaxud icra hakimiyyəti və idarəetmə orqanlarının rəqabətə yol verməməyə onu məhdudlaşdırmağa, yaxud aradan qaldırmağa yönəlmiş fəaliyyətdir" (3, səh 31-50).

Bazarda inhisarın aşağıdakı əlamətləri mövcüddur:

- Müəyyən əmtəənin yeganə istehsalçısı olan sahibkarın satış zamanı öz şərtlərini diktə etməsi imkanının olması;

- Təchizat bazarının inhisarlaşması yolu ilə uyğun əmtəələr istehsal edən rəqiblərin istehsal ehtiyyatlarından məhrum edilməsi;

- Sahibkarın əmtəə istehsalının və bazara çıxışının məhdudlaşdırması onun rəqiblərinin isə yaranmış bu çatışmamazlığı konpensasiya etməsi iqtidarında olmaması;

- Bazar rəqiblərini nəzərə almadan əmtəıənin qiymətinin artırılması imkanının olması.

Bazarda inhisarçılıq müəssisələri rəqabət kimi obyektiv əsasdan məhrum edərək onların elmi-texniki yeniliklərə marağını aradan qaldırır. Inhisar qiyməti hesabına öz rifahını təmin etmək imkanı yaranır ki, bu da istehlakçıların və bütövlükdə cəmiyyətin maraqları ilə uzlaşmır. Istehlakçının mənafeyinin arxa plana keçməsi, eyni zamanda məhsulun (xidməti) keyfiyyətinin aşağı düşməsinə, məhsul göndərişinin müddətlərinin diktəsinə gətirib çıxarır. Məhsul bazar qiyməti ilə deyil, onun ictimai dəyərindən yuxarı və ya aşağı səviyyədə müəyyənləşdirilən inhisar qiyməti ilə satılır. Bu iki halın yaranma mexanizminin ümumi şəkildə nəzərdən keçirək:

1.Məhsula onun ictimai dəyərindən artıq yüksək inhisar qiymətinin qoyulması.

Inhisarlar buna istehsal həcmini azaltmaqla bazarda müəyyən defisit zonalarının yaradılması hesabına nail olurlar. Beləliklə də istehsalçı tələbi süni olaraq artırır. Bu halı aşağıdakı qrafik üzrə izləyək:

Şəкil 1.2.




Şəкil 1.2-dən göründüyü кimi bazar inhisarlar tərəfindən ələ keçirilməmişdən əvvəl məhsul tələb və təklif əyrilərinin kəsişdiyi qiymətə - P tarazlıq qiymətə satılır. Daha sonra inhisar mövqeyinə iddia edən müəssisə bazarda məhsula qıtlıq yaratmaq məqsədilə istehsal həcmini Ii səviyyəsinə qədər azaldır. Bu isə ona öz məhsuluna Qi inhisar qiyməti qoymağa imkan verir.

2. Məhsula onun ictimai dəyərindən aşağı inhisar qiymətinin qoyulması. Bu qiymət inhisarlar tərəfindən autsayderlərindən mal alan zaman qoyulur. Süni olan bazarda məhsul artıqlığı zonaları yaradılır. Bu halda mal alışının həcmi bilərəkdən azaldılır. Beləliklə təklif tələbi üstələyir. Son nəticədə isə məhsul

inhisarlara aşağı inhisar qiyməti ilə təklif edilir. Bazarda bu davranışı şəkil vasitəsilə aşağıdakı kimi göstərmək olar:

Şəкil 1.3.




Hazırda iqtisadi tərəqqinin məqsədlərindən asılı olaraq bazar strukturunun müxtəlif təsnifləşdirilmələri təklif oluna bilər. Onların ən sadələrindən və həm də daha mühümündən başlasaq qeyd olunmuşdur ki, bu təsnifləşdirmənin əsasını bazar qiymətlərinin formalaşmasına bu satıcının (alıcının) təsiri dərəcəsi təşkil edir. Əgər satıcılardan (alıcılardan) biri əmtəənin qiymətinə əhəmiyyətli təsir etmək qabiliyyətinə malikdirsə, onda bazar strukturu təkmil rəqabətli кimi xarakterizə olunur. Əgər bu şərt gözlənilmirsə onda demək olar ki, rəqabət qeyri-təkmildir. Təkmil rəqabət şəraitində bazar istənilən bir vaxt anında hər bir satıcıya (alıcıya) qiyməti diqtə edir.

İnhisarçı yaxın analoqları olmayan məhsulun yeganə istehsalçısıdır. Tam rəqabət şəraitindən fərqli olaraq inhisarçı öz məhsulunun qiymətlərinə təsir göstərə bilər.

İstənilən bazar strukturunda müəssisənin maraq dairəsində olan göstəricilərdən biri də son hədd gəliridir. Son hədd gəliri (MR) məhsul həcminin bir vahid artması nəticəsində ümumi gəlirin artımıdır:

$$MR= \Delta(TR) / \Delta Q$$

Nəzərə almaq lazımdır ki, tam rəqabət şəraitində fərqli olaraq xalis inhisar şəraitində qiymət inhisarçının məhsul istehsalat həcmindən asılıdır. Məhsul həcmi nə qədər çoxdursa, qiymətlər bir o qədər aşağıdır.

$$MR = \Delta(TR) / \Delta Q = \Delta(P*Q) / \Delta Q = P + Q / (\Delta P / \Delta Q)$$

Ikinci toplanan sıfırdan kiçik olduğuna görə $MR<P$

Göstərilən bərabərsizliyi asanlıqla izah etmək olar. Tutaq ki, inhisarçının illik istehsalının həcmi 1000 məmulat olduqda bir məmulatın qiyməti 400 manat təşkil edir. Nəzərə alınmalıdır ki, istehsal həcminin 1 qəpik artması qiymətin 1 manat aşağı düşməsinə gətirib çıxarır. Lakin gəlirin artımı 399,99 manatla müqayisədə olduqca az olacaqdır.

Məsələ ondan ibarətdir ki, qiymətin aşağı düşməsi inhisarçının bütün istehsal həcminə təsir edir. Bu halda gəlirin artımı MR=399,99*10001-400*1000=300 manat təşkil edəcək.

Inhisarçı üçün mənfəətin maksimumlaşdırılması şərtini müəyyənləşdirək. Bundan ötrü mənfəətin (M) məhsul həcminə (Q) görə törəməsini tapaq və onu sıfıra bərabərləşdirək.

$$dP/dQ = d(TR-RC)/dQ = dCTR/dQ = MR-MC =0 \quad (3)$$

və yaxud

$$MC = MR \neq P$$

Bu şərt asanlıqla aydınlaşdırılır. Indi isə aşağıdakı misala qayıdaq. Əgər istehsalat həcminin 1 məmulat artması zamanı inhisarçı ümumi xərcləri 250 manat artırsa, onda onun mənfəəti 205-300 manat artır. Inhisarçı istehsalın genişləndirilməsində və qiymətlərin yüksəldilməsində maraqlıdır. O özünün son

hədd gəlirinin son hədd xərcləri ilə müqayisə edilə bilmədiyi ana qədər bunu yerinə yetirəcəkdir. Əksinə, əgər son hədd xərcləri son hədd gəlirindən yüksəkdirsə, məsələn 350 manata bərabərdirsə, onda inhisarçı mənfəəti maksimumlaşdırmağa səy göstərərək istehsal həcmini ixtisar edəcək və qiymətləri yüksəldəcək.

## 1.3. Milli iqtisadiyyatın dövlət tənzimlənməsində təbii inhisarın rolu və onun tədqiqinin zəruriliyi.

Təbii inhisar sahələrinin xalq təsərrüfatının aparıcı sahələri üçün əlverişli və əvəzsiz xammal (xidmət) mənbəyi olması, həmçinin onların istehsal etdikləri məhsulların yüksək sosial əhəmiyyətliliyi bu sahənin fəaliyyətinin və müvafiq qiymətqoyma mexanizminin tədqiqinə diqqəti artırır.

Təbii inhisar sahəsində qiymətlərin dövlət tənzimlənməsinin səmərliliyinin artırılması hazırda qarşıda duran ən aktual məsələlərdən biridir. Dövlət orqanlarının təbii inhisarların fəaliyyətinin tənzimlənməsi sisteminin yaradılmasına istiqamətlənmiş fəaliyyətinə baxmayaraq qiymətlərin dövlət tənzimlənməsi mexanizminin olması vacibdir. Belə ki, məqsədəuyğun olmayan yüksək qiymətlər iqtisadiyyatda inflyasiyanın inkişafına səbəb ola bilər. Ona görə də təbii inhisarların məhsullarına tariflərin formalaşması mexanizminin təkmilləşdirilməsi məsələsi aktuallığı ilə seçilir. Məlumdur ki, bir çox alimlər və siyasətçilər iqtisadiyyatın ən səmərəli təşkilini rəqabətli bazar kimi tanıyırlar. Lakin çoxlu sayda müxtəli sosial-iqtisadi amillərinin səyi ilə tamamlanmış rəqabət bazarların təbii vəziyyəti deyildir. Bundan əlavə rəqabət əsasında bir sıra ictimai istehsal sahələrinin fəaliyyəti mümkün yaxud səmərəli deyil, yəni yüksək inhisar dərəcəsi onlar üçün təbii olur. Sənaye istehsalında təbii inhisar öz aralarında rəqabət aparan müəssisələrin yaratdığına nisbətən cəmiyyət üçün

bütövlükdə istehsalın inhisarçı təşkili və məhsulun realiziyası iqtisadi cəhətdən daha üstün olan hadisəni özündə ifadə edir. Istehsal fəaliyyəti dairəsində təbii inhisarların yaranmasının və saxlanılmasının əsas səbəbi müəyyən texnoloji xüsusiyyət nəticəsində bəzi sahələrdə bir müəssisənin istehsal miqyasından ən yüksək mənfəətin mövcud olmasıdır. Istehsalın bu cür təşkili xırda və orta investorlar üçün əlçatmaz olan böyük kapital qoyuluşunu və əhəmiyyətli sabit xərcləri tələb edir. Buna görə də onların mövcud olması üçün lazımi şərait hər məhsul vahidinə düşən xərclərin kifayət qədər azalması baş verərkən istehsal miqyasında qənaət imkanlardır. Bu istehsalın bir istehsalçıda cəmləşməsinin səmərəliliyini müəyyən edir. Elektrik və yanacaq enerjisi bazarı istehlakçıların enerji təchizatının kifayət qədər etibarlı dərəcədə təmin olunmasına xidmət edir. Elektrik enerjisində istehsal miqyasından yüksək mənfəət yüksək fondtutumu, qüvvələrin cəmləşmə səviyyəsi və texnoloji proseslərlə idarəetmənin mərkəzləşdirilməsi ilə əlaqədardır. Mərkəzləşdirilmiş iqtisadiyyatda bütün qiymətlər planlı qaydada müəyyən edilirdi, resurslar isə mərkəzləşmiş qaydada bölüşdürülürdü, buna görə də təbii inhisarlara aid olan xüsusi sahələr praktiki olaraq ayrılmırdı. Bazar iqtisadiyyatına keçid təbii inhisarların müəyyən tənzimlənmə metodlarının tətbiqinin vacibliyini şərtləndirdi. Bu zərurət bir sıra səbəblərlə əlaqədardır. Bir müəssisənin əlində istehsalın texniki səmərəliliyinin cəmləşməsinə baxmayaraq, bazar təcrübəsi xərclərin yüksəldilməsi yaxud mənfəətin şişirdilməsi formasında inhisar vəziyyətindən sui-istifadə faktlarını aşkar edir ki, bu əsassız yüksək qiymətlərin dik təsi miqyasında qənaətdən sosial effekti yox edir. Bu halda sui-istifadəni adətən kənardan tanımaq həddindən artıq çətindir, çünki inhisarçının real iş vəziyyəti əsaslı surətdə gizli olan informasiyalardır. Təbii inhisarçılar bir qayda olaraq, bir çox müəssisələrin normal fəaliyyət göstərməsi üçün zəruri olan məhsul istehsal edir və onların istehlak etdiyi resursların əsas hissəsini təşkil edən təbii inhisarların məhsula görə

ödəmələri vaxtında yerinə yetirilməsi ödəməmələr böhranına səbəb olur. Ödəməmələrin yayılması – təbii inhisarların və öz fəaliyyətində dövlətin tənzimlənmə təsiri ilə qiymət ayrı-seçkiliyin nəticəsidir. Buna görə təbii inhisar sahəsində qiymət ayrı-seçkiliyi inhisarçıların özləri tətərfindən deyil dövlət tərəfindən tənzimlənmə formasında meydana çıxmalıdır. Təbii inhisarlarda qiymətin tənzimlənməsinin zəruriliyi yalnız inhisar davranışının mənfi nəticələri ilə şərtləndirilmir. Təbii inhisar məhsullarının qiymətlərinin differensiallaşdırılması sahələrin təsərrüfat aktivliyini tənzimləyən dövlətin iqtisadi siyasətiningüclü vasitəsi kimi çıxış edir. Başqa sözlə, tənzimlənən qiymətlərdə iqtisadiyyata təsir mexanizmi fiskal makroiqtisadi siyasətə effektiv əlavədir. Təbii inhisarlar barədə danışarkən onu qed etmək lazımdır ki, bir qayda olaraq, bu sahələr həddindən artıq kapitaltutumlu iri sənaye müəssisələri kimi təqdim olunur, onların xərclərinin xeyli hissəsi daimi xarakter daşıyır. Təbii inhisar əmtəə bazarının elə vəziyyətidir ki, hansı ki, istehsalın texnoloji xüsusiyyətlərinin gücü ilə rəqabət olmadıqda bu bazarda tələb daha effektiv olur (istehsal həcminin çoxalmasına görə hər əmtəə (mal) vahidinin istehsal xərclərinin əhəmiyyətli dərəcədə azalması ilə əlaqədar), təbii inhisar subyektlərinin istehsal etdikləri əmtəələr (xidmətlər) isə başqa əmtəə (xidmətlərin) istehlakı ilə əvəz edilə bilər. Ona görə ki, təbii inhisar subyektlərinin istehsal etdikləri əmtəələrə (xidmətlərə) olan tələb başqa növ əmtəələrə olan tələbə nisbətən onların qiymət dəyişiliklərindən az asılıdır. Təbii inhisar o zaman mövcud olur ki, miqyas effekti böyük olan hər məhsul vahidinə əz az xərc çəkən firma bir sıra rəqabət edən fimalara nisbətən bütün bazarı təchiz edə bilər. Belə şərait ictimai istifadə müəssisələri üçün də xarakterikdir. Belə hallarda istehsalda miqyas effekti və məhsulun bölüşdürülməsi o qədər böyükdür ki, hər məhsulun vahidinə az xərc və aşağı qiymət almaq üçün irimiqyaslı fəaliyyət lazımdır. Əgər bazar bir çox istehsalçılar arasında bölüşdürülərsə, onda

bu xərcləri ödəmək üçün istehsal miqyasının effektinə nail olunmazdı, hər məhsul vahidinə çəkilən xərclər yüksək olardı və yüksək qiymətlər tələb olunardı.

Təbii inhisar o zaman mövcud olur ki, miqyasdan mənfəət azalması olmadan miqyasdan qənaət bir müəssisəyə bütün bazar tələbini təmin etməyə icazə versin. Belə tipli inhisarı ona görə təbii adlandırırlar ki, bu halda daxilolma əngəlləri mülkiyyət hüququna yaxud hökümət lisenziyalarına deyil, təbiətin təbii qanunlarını əks etdirən texnoloji xüsusiyyətlərinə istinad edirlər. Nümunə üçün şəhər su kəmərini nəzərdən keçirək. Iki boru sistemlərinin bir-birinə paralel qoyaraq ona nail bilərik ki, sakinlərin seçiminə görə bir-birinin yanında yerləşən evlər, həmçinin bir evdəki qonşu mənzillər iki su təchizatı şirkətinin hər hansı birinə qoşula bilərlər. Istehlakçıya çatdırılmış suyun bir litrinin xeyli bahalaşması hesabı olmadan rəqabət ola bilər. Aydındır ki, bir su təchizatı sistemin olması çox ucuz başa gəlir. Təbii inhisarların fəaliyyət sahəsinə: magistrial boru kəməri ilə neftin və neft məhsullarının daşınması; boru kəməri ilə qazın nəql edilməsi; elektrik və istilik enerjisinin ötürülməsi üzrə xidmətlər; dəmiryol daşımaları; nəqliyyat terminallarının, limanların, hava limanlarının xidmətləri; əlverişli elektron və post rabitəsi xidmətləri aiddir.

Təbii inhisar tərəfindən cəmiyyətə uyğun təminatın mümkün vasitələri qismində iki alternativ təqdim olunur. Onlardan biri dövlət mülkiyyəti, digəri isə dövlət tənzimlənməsidir. Əgər rəqabət mümkün deyilsə, onda nəzarət edilməyən inhisar hakimiyyətinin mümkün sui-istifadələrdən qaçmaq üçün tənzimlənən inhisar yaratmaq lazımdır.

Təbii inhisar sahələrində son dövrlərə qədər geniş tətbiq olunan qiymət strategiyasına görə istehlakçı qruplarından birinə edilən güzəştlər digər istehlakçı kateqoriyası üçün çox yüksək qiymətin (tarifin) müəyyən edilməsi hesabına müvazinətləşdirilirdi. Bu da prinsip etibarı ilə təbii inhisar subyektlərinə dövlət

büdcəsindən dotasiyanın verilməsi ilə nəticələnir. Lakin dövlət büdcəsindən dotasiyaların verilməsi cəmiyyət üçün çox da vacib olmayan xalis itkilərə gətirib çıxara bilər. Qaz nəql edən kompaniyanı götürək. Bu sahənin texnologiyası qaz kəmərlərini, kompressor və digər avadanlıqların işlək vəziyyətdə saxlanılması üçün çox yüksək daimi xərcləri nəzərdə tutur. Bununla birlikdə, əgər bu avadanlıq artıq quraşdırılıbsa əlavə qaz vahidinin çatdırılmasına çəkilən xərcin həddi azdır. Analoji olaraq istehlakçıların enerji təchizatını elektrik şəbəkəsinin yaradılmasına, transformatorların və digər avadanlıqların quraşdırılmasına qabaqcadan daimi xərc qoyan kompaniya təmin edir. Lakin istehlakçıya əlavə kilovatt – saat elektrik enerjisinin çatdırılması üçün çox da əməhiyyəti olmayan xərc həddi tələb olunur. Belə ki, yalnız yüksək daimi və aşağı hədlərini təbii kompaniyalar fərqləndirirlər. Buna görə də xərc hədləri üzrə qiymət əmələ gəlməsi zərərə gətirib çıxarır. Dövlətin qiymət siyasətinin təbii inhisarlara münasibəti necədir? Hər şeydən əvvəl, onların bir-birinə təqdim etmək arzu olunmazdır, çünki “həddən artıq buraxılış” yüksək inhisar qiymətləri nəticəsində olacaq. Eyni zamanda zərərin əmələ gəlməsinə görə xərc həddi səviyyəsində müəyyən edilmiş qiymətlərlə təbii inhisarların istehsal edəcəklərini gözləmək reallıq deyil. Müxtəlif ölkələrdə bu problemi müxtəlif cür həll edirlər. Birində təbii inhisarlar şəxsi kompaniyalar kimi qalaraq, məsələn, ABŞ kimi xüsusi orqanlarla tənzim olunurlar. Digərlərində isə məsələn, fransada olduğu kimi, bilavasitə dövlət orqanları ilə idarə olunurlar, iqtisadiyyatın ictimai bölməsi çərçivəsində nisbətən müstəqillik statusu alırlar. Kompromisli qərar kimi tənzimləyici orqan qiymətləri müəyyənləşdirərkən tələbin və orta xərclərin bərabərliyinə istiqamətlənə bilər. Belə halda dotasiyanın verilməsi vacib deyil. İlk dövrdə Azərbaycanda yeni iqtisadi islahatlar şəraitində iri sənaye müəssisələri fəaliyyət göstərmirdilər, bu dövrdə milli iqtisadiyyat dərin iqtisadi böhran keçirirdi. Istehsalın ümumi ixtisarı nəticəsində Azərbaycanda rabitə sahələri

istisna olunmaqla, məhsula tələb və təbii inhisar sahələrinin xidmətlərinin həcmi daim aşağı düşürdü. Iqtisadi böhran təbii inhisar sahələrinin (xidmətlərinin) məhsullarına tələbin aşağı düşməsinə səbəb olmuşdur. Nəticədə hər məhsul vahidinin qiymətlərində daimi xərclərin payı artırdı. Bundan başqa, son vaxtlaradək təbii inhisar subyektləri maya dəyəri və mənfəət hesabına formalaşan daxili mənbələr hesabına xeyli dərəcədə investisiyalar həyata keçirilmişdir ki, bu da tariflərə ciddi təsir etdi. Praktik olaraq bütün sahələrdə bir qrup istehlakçıların başqalarının hesabına çarpaz subsidiyalaşması qorunub saxlanılırdı. Əhali və büdcə təşkilatları üçün aşağı tariflər sənaye və kommersiya istehlakçıları hesabına subsidiya (maddi yardım) edilirdi. Məsələn, dəmir yol nəqliyyatında sərnişin daşımaları üzrə zərər yükdaşıma nəqliyyatı tarifləri hesabına ötürülürdü. 90-cı illərin ortalarında onlar dünya səviyyəsinə yaxınlaşmışdı. Təbii inhisar sahəsində belə islahatlar istehlakçılar üçün ağır sınaq idi. Elektrik enerjisi, qaz sənayesisi, rabitə sahəsi və dəmir yol nəqliyyatında qiymətlərin artması xərclərin əsaslandırılması (əmək haqqına, sosial ödənişlərə, investisiya fəaliyyətinə çəkilən xərclər) barədə və təklif edilən məhsulun keyfiyyət və xidmətinin qiymət səviyyəsinə uyğunluğu haqqında məsələnin qarşıya qoyulmasının vacibliyini şərtləndirdi. Təbii inhisar seqmentlərini təşkil edən bütün sahələr, xüsusən yanacaq-enerji kompleksi sahələrində qənaət üzrə əmək haqqı orta əmək haqqını üstələyirdi və onların işçiləri başqa sahələrlə müqayisədə nəzərə alaraq aydın olur ki, onların istehsal etdikləri məhsula qiymət artımı makroiqtisadi səviyyədə inflyasiyasının ən güclü amillərindəndir, hansı ki, iqtisadçılar tərəfindən düzgün olaraq xərc inflyasiyası kimi səciyyələnir. Iqtisadi inkişafın kökündən belə dəyişməsi təbii inhisar sahələrində dövlət tənzimlənməsinin zəruriliyini sübut edir.

Bu sahədə milli iqtisadi islahatlar inhisar strukturlarının iqtisadi əsaslarının transformasiyasından başladı. Belə növ transformasiya antiinhisar tənzimlənməsi

və nəzarətin qaydaya salınmış sisteminin təsiri və dövlətin fəal iştirakı ilə baş verməlidir.

Təbii inhisar tənzimlənməsinin milli təcrübəsinin formalaşması bütövlükdə xarici təcrübənin yolu ilə gedir. İqtisadi cəhətdən inkişaf etmiş bütöv dövlətlərdə təbii inhisar sahələrində qiymətlərin və tariflərin antiinhisar tənzimlənməsinin öz yeri vardır. Dünya praktikasında qiymətin tənzimlənməsinin inzibati və iqtisadi metodları məşhurdur. Qiymətlərin iqtisadi tənzimlənməsi maliyyə, vergi, kredit, gömrük və büdcə siyasəti vasitəsilə həyata keçirilir. Qiymətlərin iqtisadi tənzimlənməsi qeyd edilmiş qiymət və tarflərin; qiymət həddi və tariflərin: qiymətlərin dəyişilməsinin son kofisiyenti; hədd səviyyəsinin müəyyənləşdirilməsi vasitəsilə həyata keçirilir. Müxtəlif ölkələrdə qiymətlərin tənzimlənməsinin müxtəlif metodlarına qeyri-bərabər üstünlük verir, bu da bir çox amillərdən asılıdır, lakin bütün ölkələrdə təbii inhisar sahələri dövlət tərəfindən tənzimlənir.

Təbii inhisar sahəsində qiymət və tariflərin tənzimlənməsi elmi əsas tələb edən mürəkkəb prosesdir. O bu sahələrdə inhisarlaşmanın zəiflədilməsinin, dövlət orqanlarının qiymətlərin müəyyən edilməsinin norma, metod, həmçinin nəzarət metodlarının ümumi prinsiplərini hazırlaması məsələlərin həll edilməsi ilə bağlıdır. Lakin demonopoliya etmə bülün hallarda məqsədəuyğun deyil, belə ki, rəqabət dairəsi yaratmaq məqsədilə xırda və orta müəssisələr sırasına iri bir müəssisənin məcburi yerləşdirilməsi xərclərin və qiymətlərin səviyyəsinin artmasına gətirib çıxarar. İri istehsalatda müşahidə olunan müsbət miqyas effekti sayəsində dövlət iri bir islehsalçının fəaliyyətinin qiymət və tariflərin tənzimlənməsi şərtləri ilə stimulluşdırır. Müsbət miqyas effekti istehsalın həcminin artması prosesində istehsal məhsulunun hər vahidinə xərclərin azaldılmasında əmələ gəlir, başqa sözlə, istehsal artdıqca hər məhsul vahidinə xərc də azalır, qiymət və tariflər daimi olduqda istehsalçıya müsbət mıiqyas

effektindən əlavə mənfəət gəlir. Əhəmiyyətli müsbət miqyas effekti olan nıüəssisənin genişləndirilməsi islehlak rifahının artması ilə eyni zamanda kompaniyanın mənfəətinin çoxalmasına gətirib çıxarır.

Bunun səbəbi odur ki, qiymət və tariflərin qeyd olunmuş yaxud minimal hədd səviyyələrinin dövlət tərəfindən müəyyənləşdirilməsinə baxmayaraq hər məhsul vahidinin istehsalına xərclərin azaldılması kompaniyalara ınənfəəti əhəmiyyətli dərəcədə artırmağa, qiymət və tarifləri dərəcələrə ayırmağa imkan yaradır, məhz bu prinsiplə energetika sahəsində tariflərin dövlət tənzimlənməsi həyata keçirilir ki, bu həmçinin bazar iqtisadiyyatlı ölkələrdə təbii inhisar sahələrinə aiddir.

Təbii inhisarların fərqləndirici xüsusiyyəti kommunal təsərrüfatı üçün tipik olan şəbəkə strukturlarının (boru kəməri nəqliyyatı,su təchizatı sistemləri, elektrikötürücüləri xətti, dəmir yolları və s.) olmasıdır. Bir qayda olaraq, onlarda daimi xərclər yüksəkdir, bu da miqyaslarda qənaətin mümkünlüyünü təmin edir, yeni islehsalın həcminin böyüməsinə görə (hər məhsul vahidinə) xüsusi xərclərin azalmasını təmin edir. Yalnız bu bir istehsalçının məhslulunun bir yerə cəmlənməsinin səmərəliliyini təyin edir.

**Fəsil II. Müasir dövrdə təbii inhisarların qiymətqoyma mexanizminin təhlili.**

## 2.1. Təbii inhisar sahələrində qiymətlərin dövlət tənzimlənməsinin qanunvericilik təminatı və onun müasir vəziyyəti.

"Antiinhisar fəaliyyəti haqqında" Qanuna müvafiq olaraq inhisarçı müəssisələrin tətbiq etdiкləri qiymət və tariflər üzərində nəzarət funкsiyasını İqtisadiyyat Nazirliyi həyata кeçirir. Aparılan tədbirlərin nəticəsində hazırda yalnız aşağıda göstərilən məhsulların və xidmətlərin qiymət və tarifləri tənzimlənir:

— enerji daşıyıcıların bütün növləri;

— neft və neft məhsullarının daşınma və təchizat xərcləri;

— avtobus, dəmir yolu, hava və su nəqliyyatı ilə şəhərlərarası sərnişin daşımaları;

— telefon abonent haqqı;

— şüşə girov qiymətləri, şərabçılıq sənayesində işlədilən ağac və пolietilen yeşiklər.

Əsas kommunal xidmətləri tarifləri, şəhərətrafı və şəhərdaxili sərnişin daşımaları (o cümlədən metropolitenlə) tarifləri icra hakimiyyəti orqanları tərəfindən tənzimlənir.

Hazırda respublikamızda qiymətin əmələ gəlməsinin əsas prinsipi ondan ibarətdir ki, qiymətlər alıcı ilə satıcı arasında razılaşmalar əsasında müəyyən edilsə də, dövlət müəyyən əmtəələrin və ya ayrı-ayrı müəssisələrin qiymətlərini tənzimləməyə müdaxilə etmək hüququnu özündə saxlayır. Bu, xarici təcrübədə qiymətlərin dövlət tənzimlənməsinə uyğun gəlir.

Sənayedə, xüsusilə də onun dövlət bölməsində yüksək inhisarlaşma səviyyəsini nəzərə almaqla inhisar fəaliyyətini və ədalətsiz rəqabəti

məhdudlaşdırmaq və aradan qaldırmaq, əmtəə bazarlarının səmərəli fəaliyyətini yaratmaq üçün şərait tə'min etmək məqsədəuyğun sayılmalıdır. Təsərrüfat subyektləri müəyyən əmtəə bazarında başlıca mövqe tuta bilərlər, daha doğrusu, elə bir müstəsna vəziyyətə malik ola bilərlər ki, bu, həmin müəssisəyə rəqabətə həlledici tə'sir göstərmək, digər müəssisələrin bazara daxil olmasını çətinləşdirmək və ya başqa cür desək, onların iqtisadi fəaliyyət azadlığını məhdudlaşdırmaq imkanı verər. Təcrübədə belə bir başlıca mövqeyə malik olan müəssisələrin müəyyən əmtəə bazarında payı Antiinhisar Dövlət Xidməti tərəfindən hər il müəyyən edilən son hədd kəmiyyətini ötüb keçməməlidir. Doğrudur ki, müəssisə sübut edə bilər ki, onun xüsusi çəkisi son hədd kəmiyyətini ötməsinə baxmayaraq, bazarda bu müəssisənin mövqeyi əsas sayılmamalıdır. Mövcud əsasnaməyə görə müəyyən əmtəə bazarında təsərrüfat subyektinin payı əgər 35%-i ötüb keçmirsə, onda bu subyektin mövqeyi əsas sayıla bilməz.

Hakim mövqe tutan müəssisələr qiymətlərin, güzəştlərin, əlavələrin (ödəmələrin) müəyyən edilməsinə, hərraclarda qiymətlərin yüksəldilməsinə, aşağı salınmasına və ya saxlanmasına yönəldilmiş müqavilələr bağlaya bilər və ya razılaşdırılmış fəaliyyət apara bilər. Onlar həm də ərazi prinsipi üzrə, satışın və ya tədarükün həcminə görə, reallaşdırılan əmtəə çeşidlərinə görə bazar bölməsini həyata keçirə bilər. Bundan başqa, həmin müəssisələr satıcı və alıcı dairələri üzrə bazara girişi məhdudlaşdıra və ya müəyyən əmtəələrin alıcı və ya satıcıları kimi bazardan digər müəssisələri çıxara bilər, müəyyən satıcı və ya alıcılarla müqavilə bağlamaqdan imtina edə bilərlər. Bu cür müqavilələr qanunvericiliyə görə qadağan edilmişdir.

Inhisarçı müəssisələrin yuxarıda sadalanan fəaliyyətini aradan qaldırmaq üçün onlar tərəfindən istehsal edilən məhsullar üzrə qiymətlərin tənzimlənməsi tətbiq edilmişdir.

Inhisarçı müəssisələr Azərbaycan Respublikasının əmtəə bazarlarında fəaliyyət göstərən inhisarçı müəssisələri xüsusi dövlət reyestrinə daxil edilmişdir.

Reyestrə müəyyən keyfiyyətli və çeşidli məhsulların konkret qrup və növlərinin istehsalına görə inhisarçı sayılan müəssisələr daxil edilir.

Reyestrin formalaşması və marağı olan müəssisəyə reyestrə daxil olunması və ya ondan çıxarılması haqqında informasiyanın çatdırılması Antiinhisar və sahibkarlığa kömək komitəsi tərəfindən həyata keçirilir. Istehlakçı müəssisələr də müəyyən hüquqlara malikdirlər. Belə ki, onlar inhisarçı sayılan müəssisələrin reyestrə daxil edilməsi üzrə öz təkliflərini verə bilərlər. Yerli hakimiyyət orqanları yerli bazarlarda bu cür inhisarçıları aşkara çıxarır və onların reyestrə daxil edilməsi üçün Antiinhisar siyasəti və sahibkarlığa kömək komitəsinə təkliflər verirlər.

Əgər inhisarçı müəssisə reyestrə daxil edilirsə, onda bu müəssisəyə inhisarçı sayılan məhsulların nomenklaturası üzrə nəzarət olunur.

Inhisarçı – müəssisələrin məhsuluna qiymətlərin dövlət tənzimlənməsinin məqsədi dövlət qiymət intizamının pozulmasını, əmtəə və xidmət bazarında hakim mövqe ilə və ədalətsiz rəqabət ilə bağlı sui-istifadə hallarını xəbərdarlıq etmək, məhdudlaşdırmaq və aradan qaldırmaqdan ibarətdir.

Ədalətsiz rəqabət də rəqabət aparan müəssisələrə ziyan gətirə bilər. Bu cür rəqabət müxtəlif formalarda aparılır ki, onlar da aşağıdakılardan ibarətdir: digər müəssisəyə zərər gətirməyə, yaxud da onun işgüzar adına ziyan gətirməyə qabil olan böhtan, qeyri-dəqiq və ya təhrif olunmuş mə'lumatların yayılması; məhsulların hazırlanması xarakteri, üsulu və yeri, istehlak xassələri və keyfiyyəti nöqteyi-nəzərindən istehlakçıların çaşdırılması; reklam fəaliyyəti prosesində istehsal olunan və ya realizə edilən əmtəələrlə digər müəssisələrin əmtəələrinin kobudluqla müqayisə edilməsi; əmtəə işarəsinin, firma adının və ya əmtəə markalanmasının, habelə digər müəssisənin əmtəəsinin formasının,

qablaşdırılmasının, xarici görkəm verilməsinin sür'ətinin özbaşına istifadə edilməsi; sahibinin xəbəri olmadan elmi-texniki, istehsal və ya ticarət informasiyalarının, o cümlədən kommersiya sirrinin alınması, istifadə edilməsi və yayılması.

Inhisarçı müəssisələr öz məhsulunu tənzimlənən və azad qiymətlərlə reallaşdırırlar. Əgər istehsal-texniki tə'yinatlı məhsula, xalq istehlakı mallarına, xidmətlərə dövlət qiymət tənzimlənməsi tətbiq edilirsə, onda inhisarçı müəssisələr bu məhsulu tənzimlənən qiymətlər üzrə reallaşdırırlar. Qalan məhsula azad (bazar) qiymətlər tətbiq olunur.

Hazırda respublikamızda inhisarçı müəssisələrin məhsuluna qiymətlərin dövlət tənzimlənməsi müxtəlif üsullarla həyata keçirilir:

I. Son hədd qiymətini müəyyən etmək olar. Qiymətin son hədd səviyyəsi elə bir maksimal səviyyədir ki, qiymət bundan yuxarıya qaldırıla bilməz. Qiymətin son hədd səviyyəsinin müəyyən edilməsi əslində onların dondurulmasıdır. Belə bir tədbir qıtlıq şəraitində vacib ola bilər, çünki sərbəst qiymətlərin idarəolunmaz artımı son nəticədə istehsalın ixtisar olunmasına gətirib çıxarır.

Qiymətlərin son hədd səviyyəsi hər şeydən əvvəl sosial cəhətdən vacib əmtəə və xidmətlərə qoyula bilər. Məsələn, 1995-ci ilə qədər çörəyə qiymətin məhdudlaşdırılması üçün yerli icra hakimiyyəti orqanları yerli büdcələrin vəsaitlərindən istifadə etmək hesabına daha aşağı son hədd qiymətlərinin qoyulması haqqında qərar qəbul etdilər. 1995-ci ilin fevralın 1-dən e'tibarən çörəyin qiyməti sərbəst buraxıldı və taxıl istehsalçılarına dotasiyalar ləğv olundu.

Son hədd qiymətləri ətə, südə, yarmaya, bitki yağına və digər sosial əhəmiyyət kəsb edən əmtəələrə qiymətlərin tənzimlənməsi üçün məsləhət görüldü. Həmin əmtəələrin istehsalına kömək etmək və qiymət artımlarını

saxlamaq məqsədilə respublika və yerli büdcələrdən kənd təsərrüfatı istehsalçılarına dotasiya ödəmələri həyata keçirildi.

Istehsalçını müəyyən edilmiş son hədd səviyyəsindən aşağı qiymətlərlə əmtəə istehsalına maraqlandırmaq üçün öz məhsulunu daha aşağı qiymətlərlə satan müəssisələrə vergi üzrə və büdcəyə digər tədiyyələr üzrə güzəştlər verilir.

Inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrin çoxu artıq, hər şeydən əvvəl, zəruri tələbat mallarına yuxarı son hədd qiymətlərinin tənzimlənməsi mərhələsini keçmişlər. Bazar əmtəələrlə tam təchiz olunmuşdur. Yetkin rəqabət təkcə istehsalçılar arasında deyil, həm də əmtəə reallaşdıranlar arasında mövcuddur. Səmərəli antiinhisar qanunverijiliyi fəaliyyət göstərdiyinə görə istehsalçı və tacirlərin inhisarı tamamilə istisnalıq təşkil edir.

II. Təsbit edilmiş qiymətlərin qoyulması istisna edilmir.

III. Qiymətlər artırılarkən qiymətlərin dəyişməsinin son hədd əlavələri (əmsalları) müəyyən edilir. Bu cür əlavələr (əmsallar) qiymətlərin artımını ləngidir. Bu əmsal müvafiq məhsul istehlakçılarına proteksionist münasibət göstərdi.

IV. Rentabelliyin son hədd səviyyəsi və ticarət əlavəsinin ölçüsü tətbiqi

Texniki tərəqqinin stimullaşdırılması, istehsalın həcminin artırılması məqsədilə rentabelliyin son hədd səviyyələri inhisarçı müəssisələrin məhsulları üzrə tətbiq olunmaya da bilər. Bu, aşağıdakı hallarda mümkündür: 1) cari ilin əvvəlindən keçən ilin müvafiq dövrü ilə müqayisədə natural ifadədə müqayisəli keyfiyyətdə məhsul istehsalının həcm artımına nail olunubsa; 2) seriyalı istehsala göndərmə momentindən iki il ərzində yeni yüksək səmərəyə malik məhsul istehsal olunursa; 3) əgər yeni məhsul xüsusi olaraq həmin məhsul üçün yaradılmış patentləşdirilmiş istehsalın tətbiqi ilə hazırlanırsa. Bu halda rentabelliyin məhdudlaşdırılmasının yoxluğu müddəti bu məhsulun istehsala qoyulması müddətindən 3 il təşkil edir. 4) məhsulların mövcud qiymət

səviyyəsinin, istehlak xassələrinin və keyfiyyətinin saxlanması şərtilə maya dəyəri aşağı salındıqda.

Azərbaycan Respublikasının iqtisadiyyatında rəqabətin mövcud vəziyyəti və dövlət orqanlarının rəqabətin formlaşması və inkişafı sahəsində fəaliyyətinin əlaqələndirilməsi, bu sahədə qarşıda duran vəzifə və problemlərin müəyyənləşdirilməsi və onların həllinə nail olmaq üçün tədbirlərin həyata keçirilməsi antiinhisar orqanının əsas vəzifələrindəndir. Məlumdur ki, azad sahibkarlığın inkişafı, haqsız rəqabətin və inhisarçılığın yolverilməzliyi Azərbaycan Respublikasının Konstitutsiyasında, Mülki Məcəlləsində, “Sahibkarlıq fəaliyyyəti haqqında” qanununda və bir sıra digər hüquqi-normativ aktlarında öz əksini tapmışdır.

Ölkədə azad rəqabətə əsaslanan bazar iqtisadiyyatının formalşmasına nail olmaq üçün rəqabətin inkişafını təmin edən hərtərəfli düşünülmüş antiinhisar siyasətinin hazırlanması və həyata keçirilməsi üzrə işlər aparılır.

Rəqabətin inkişafı və qorunması, inhisarçılığın qarşısının alınması və istehlakçıların hüquqlarının müdafiəsi məqsədi daşıyan antiinhisar siyasəti dövlətin iqtisadi strategiyasının ümumi sisteminin bütün sahələrinə sirayət edir və bu nöqteyi nəzərdən çox istiqamətlidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi iqtisadiyyatın dinamik inkişafına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə və yeni strateji imkanların yaranmasına səbəb olmuşdur.

Bu imkanlardan istifadə edilməklə ölkədə əlverişli investisiya mühitinin yaradılması və inflyasiyaya səbəb olan amillərin aradan qaldırılması sahəsində mühüm yei olan təbii inhisar subyektlərinin (elektrik enerjisi, qaz, su, dəmir yolu, hava və dəniz nəqliyyatı, rabitə və digərlərinin) tariflərinin tənzimlənməsinin

təkmilləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir.

Təbii inhisar sahələrindən birində -energetikada qiymətlərin (tariflərin) tənzimlənmə praktikasını izləyək. Elektrik enerjisindən istifadəyə tariflərin differensiasiyası (fərqlandirilməsi) - onların fəaliyyətinə nəzarət və tənzimlənmə məqsədilə dövlətin istifadə etdiyi ümumi qəbul edilmiş amildir. Lakin müxtəlif ölkələrdə elektrik enerjisindən istifadə tariflərin differensiasiyası (fərqləndirilməsi) prinsipləri müxtəlifdir. Elektrik enerjisinə tariflərin differensiallaşdırılmasının yerli təcrübəsini nümunə götürək. Onun əsasını istehlakçı qrupları üzrə tariflərin differensiallaşdırılması təşkil edir, yəni tariflərin səviyyəsi nıüəyyən istehlakçılar qrupundan asılıdır. 2007-ci ilin yanvarınadək Azərbaycanda tariflərin differensiasiyası istehlakçıların dörd qrupu üzrə ardıcıllıqla azalma dərəcəsinə görə kommersiya müəssisələri (ən yüksək tarif), sənaye islehsalı, büdcə təşkilatları və ev təsərrüfatları (ən aşağı tarif) bir kilovatt saatdan istifadəyə görə 96 manatdan 300 nıanatadək həddində həyata keçirilirdi.

Məlumdur ki, elektrik enerjisinin əsas istehlakçıları təsərrüfat subyektləridir, hansı ki, öz islehlakçı qrupuna uyğun tarifə görə ödəyilər. İlk baxışdan elə gəlir ki, elektrik enerjisindən istitadəyə görə dövlətin qeyd etdiyi belə tariflərin differensiasiyası istehlakçıların maraqlarının müdafiəsini nəzərdə tutur, belə ki, kütləvi istehlakçıda tarif ən aşağıdır. Belə təəssürat yaranır ki, dövlət islehlakçıların sosial maraqlarının keşiyində durur və bununla birlikdə öz əsas funksiyasını yerinə yetirir. Əslində tariflərin belə differensiasiyası kütləvi istehlakçını çətinliyə salır, belə ki, birinci qrup islehlakçıya (kommersiya müəssisələri) məxsus olan həmin restoran yaxud digər obyektlər yüksək tarif hesabından öz xidmətlərinə görə ödənişi müəyyən edir, hansı ki, son nəticədə ev təsərrüfatının büdcəsindən alınır. Ya da ki, elektrik enerjisi islehlakçılarının ikinci qrupuna aid olan müxləlif sahələrin müəssisələri elektrik enerjisindən

istiiadəyə görə istehsalın maya dəyərinə yüksək tarif daxil edirlər, həm də mallarına qiyməti artırırlar. Tariflərin diferensiasiyasının belə prinsipi həm kütləvi istehlakçı (elitə aid olmayan mal və xidmətlərin əldə edilməsi imkanlarından sıxışdırılıb), həm də təsərrüfat subyektləri üçün (tam xərcini çıxartmağa, o cümlədən elektrik enerjisindən istifadəyə ona icazə verən lazımi mənfəətin alınmaması səbəbindən) neqativ nəticələrə gətirib çıxarır. İstehlakçıların bütün dörd qrupunun elektrik enerjisindən istifadəyə görə ödənişlər üzrə xroniki borclar buradan gəlir. Bu sahənin istehsal sfesifikasından istifadə edilən elmi əsaslanma prinsıpınə əməl edərək elektrik enerjisindən istifadəyə görə tariflərin differensiallaşdırılması məsələsinə nəyə görə yanaşmayaq. Elektrik enerjisindən istifadəyə görə tarifləri differensiallaşdırmaq istehlakçıların ayrı-ayrı qruplara bölünməsi prinsipə uyğun deyil, ancaq müsbət miqyas effekti nəzərə alınaraq, onları istehlak həcminə uyğun differensiasiya etmək lazımdır. Belə ki, tariflərin differensiasiyası istehlak blokları üzrə qurulmuşdur, istehlakın, birinci bloku bütün qrup istehlakçılar üçün elektrik enerjisi sərfinin həyat üçün zəruri balansıdır - 50 yaxud 80 kilovatt saat (sərf normasından asılı olaraq) artırılacaq, ikinci istehlak blokuna tariflər, yəni sonrakı 80 kvt-saat tarif birincidən az olacaq, üçüncü istehlak bloku daha az və s. Belə halda təsərrüfat subyektləri, xeyli sayda elektrik enerjisi istehlakçıları istehsal ınallarına qiymətlərin aşağı salınması imkanlarının yaranması, istehsal həcminin böyüməsi ilə stimullaşdıracaqlar, ya da ki, əgər qiymətlər aşağı salınmazsa, onda heç olmazsa artırılmış tarifə görə o artmamalıdır, elektrik enerjisi islehlakının birinci blok istehlakçıları orta sahəvi maya dəyərindən kənara çıxmamaq üçün ona qənaət edəcəklər. Belə prinsiplə tariflərin differensiasiyası birinci blok elektrik enerjisi istehlakçılarının tarif səviyyəsinin hesabına xüsusi diqqət yetirməyi tələb edir, belə ki, bu tarif həm də kütləvi istehlakçıya da aiddir. Belə halda tarifin səviyyəsi orta xərclərə üstəgəl enerji

şirkətinin mənfəət normasına nisbələn yüksək olmalıdır. Göründüyü kimi, istehlak tarifinin hesablaşmasında ən nıühüm an mənfəəət normasının müəyyən edilməsidir. Bu halda qabaqcıl xarici təcrübəyə də müraciət elmək olar. ABŞ-da ən geniş yayılmış tənzimlənən qiymətdə mənfəət həcminin təyin edilməsi metodu aşağıdakılardan ibarətdir. Əvvəlcə, tənzimlənən fəaliyyət formasının həyata keçirilməsi üçün kompaniyanın istifadə etdiyi kapiatın həcmini ölçən tarif bazası müəyyən edilir. Sonra kapitala şüurlu yə ədalətli mənfəət norması təyin edilir. Şüurlu və ədalətli anlayışı təbii inhisar müəssisələrinin elə mənfəət normasını almasını bildirir ki, hansı ki, rəqabət sahəsində fəaliyyət göstərən hər hansı başqa bir kompaniyanın mənfəət normasından çox olmasın. Beləliklə, tənzimlənən qiymət elektrik enerjisi kompaniyasının cari istehsal məsrəfləri üstəgəl istehlak bloklarına tətbiq olunan şüurlu mənfəət dərəcəsi üzrə hesablanmış mənfəətə bərabərdir.

Tariflərin strukturu elə qurulmalıdır ki, ayrı-seçkilik aradan qalıdırılsın. Ona görə tarif satışın hər bir növü yaxud xidmətin xarakterinə görə müəyyənləşdirilir ki, bu da bir qayda olaraq xərclərin istehsal və satış həcmi, birbaşa xərclərin və mənfəətin kəmiyyəti kimi parametrlər əsasında bölgüsünü tələb edir.

## 2.2. Inhisarlar tərəfindən istehsal edilmiş məhsullara qiymətlərin formalaşması mexanizminin təhlili

Dünya iqtisadiyyatının mııxtəlif ölkə və sahələrində inhisarlaşma dərəcəsi son dərəcə qeyri-bərabərdir. Sənayedə o cümlədən metallurgiya, dağ- mədən, kimya, maşınqayırma sahələrində istehsalın təməpküzləşməsi prosesinin daha yüksək tempi müşahidə olunur. Yeni şəraitdə kapitalın təmərküzləşməsinin başlıca istiqamətləri üfuqi və şaquli inteqrasiya, diversifikasiya arasında mövcud olan nisbətlər hiss olunacaq qədər dəyişilmişdir. Üfüqi inteqrasiya dedikdə,

müəyyən sahədə iri şirkətin payının artması, sahə istehsalmm daha böyilk xüsusi çəkisinin onun əlində cəmlənməsi başa düşülür. Şaquli inteqrasiya dedikdə, iri şirkətlərin, onların əsas sahələrinə münasibətdə ardıcıl istehsal və ya tədavül pilləsi kimi yerləşən digər sahələrə yayılması başa düşülür. Diversifikasiya dedikdə, iri şirkətlərin, onların əsas sahələrilə birbaşa istehsal əlaqəsində yerləşməyən digər sahələrə soxulması nəzərdə tutulur.

Inhisar qiyməti inhisar hökmranlığının daha qabanq şəkildə meydana çıxımasını əks etdirir. Həmin hökmranlıq dərəcəsindən isə bu qiymətə daxil olan mənfəətdən artıq kəmiyyət və onun həddi asılıdır. Başqa sözlə desək. istehsal qiymətindən inhisar qiymətinin kənarlaşması o vaxt böyük olacaqdır ki, inhisar daha sabit və daha güclü olsun. Lakin inhisarın hökmranlığı heç də mütləq və dəyişməz deyildir: bir sıra sahələrdə və yaxud bir sıra bazarlarda o daha güclüdür, digərlərində isə zəifdir. Bunun isə əsas səbəbi ondan ibarətdir ki, inhisarbu və ya digər bazarda və yaxud da təsərrüfat sahələrində rəqabətlə rastlaşır. O yerlərdə ki, inhisann öz hökmranlığmı artıq dərəcədə həyata keçirmək imaknı olur, ounu bazar və qiymətə təsiri o qədər yüksək olur ki, burada qiymət on yüksək olur ki, bazar uğrnnda kəskin mübarizə gedir və burada bir neçə inhisarların mənafeyi toqquşur və yaxud da güclü autsayderlər var, qiymətə belə təsir zəif olacaqdır. Rəqabəti baxmaq məqsədilə bazar uğrunda mübarizədə inhisar detpinq yolunu tuturlar, belə ki onlar öz məhsulunu istehsal qiymətlərindən aşağı qiymətlərə ixrac etməyə başlayırlar. Inhisarçı kapitalizm dövründə rəqabət müxtəlif forma və istiqamətlərdə təsirini davam etdirməklə mənfəət və qiymətin məlum bərabərləşməsinə təsir edir. Bazarda inhisann hökmranlığı özünü nə qədər güclü göstərirsə və deməli. onun mənfəəti nə qədər çox olursa, onda bu sahədə daha böyük mənfəət göstərmək imkanı olması rəqiblərin tezliklə buraya gəlməsinə təsir edir. Qiymətin inhisarlar tərəfindən kəskin dəyişkənliyi əmtəə-əvəzləyicilərinin rəqabətinə səbəb olur və onu

gücləndirir, artırılmış qimətlər üzrə təklif olunan məhsul istehlakmın azalmasma və inhisar üçün digər arzuoiunmaz hallara gətirib çıxarır.

Inhisarların özləri arasında gedən rəqabət miihüm rol əynayır. Nəticədə mənfəət normalarının bərabərləşdirilməsi meyli mhisarçı kapitalizmdə də saxlanılır, ancaq bu proses daha mürukkəb şərtləiili lənzımlənir. Istehsaim vahid qiyməti və vahidərta mənfəət mövcuddur ki, bu da həm yüksək inhisar qiyməti və yüksək inhisar mənfəətinin, həm də aşağı inhisar qiymətinin və azaldılmış mənfəətin əsası çayılır. Inhisar qiyməti özlüyündə dəyərdən kənariaşmanı əks etdirmir, ancaq dəyərin özünün növ dəyişməsinin nəticəsidir. Dəyər qanun inhisarçı kapitalizm şəraitində özünəməxsus təzahürüdür. Beləliklə, inhisarçı kapitalizm şəraitində dəyər qanununu inhisarçı qiymət qanunu kimi çıxış edir. Qiymət dəyərdən həm kənarlaşdığı və həm də onunla üst-üstə düşdüyü vaxtda da dəyərin çevrilmiş forması kimi çıxış etməklə, inbisarçı istehsal xərclərini əks etdirir.

Iqtisadiyyatda müxtəlif tip kapitalların gəlir formalarınıtəmsil edən müxtəlif mənfəət növləri inhisar mənfəəti və adi mənfəət mövcuddur. Mənfəətin bu növlərinin fərqləndirilməsi heç də onların ümumiliyini inkar etmir. Inhisar mənfəəti öz mənşəyinə görə orta mənfəətin çevrilmiş formasıdır və deməli, çıxış nöqtəsi izafi dəyərin formasıdır. Çıxış halı kimi o, adi kapitalist mənibətini və onun əmələ gəlmə şərtlərini (izafi dəyərin alınması, «normal istehsal xərcləri», orta mənfəəti təmin edən qiymətlər üzrə istehsal olunmuş məhsulların satışı) nəzərdə tutur. Mənfəətin artıqlığı artıq bu zaman canlı əməyin həddindən artıq istismarına və keçmiş (maddiləşmiş) əməyin daha səmərəli istifadəsinə (istehsal miqyasındn qənaət və s.) yönəlmiş əsasda yaranır. Inhisar hökmranlığı münasibətləri sistemi iri kapitala görə göstərilən üstünlükləri təsbit olunmuş şəkildə möhkəmləndirməyə imkan verir ki, bu da xüsusi olaraq artıq izafi dəyəri inhisar dəyərinə və bu əsasda da izafi mənfəəti inhisar mənfəətinə çevirir.

Biznes nəhənglərinin xeyrinə mənfəətin yenidən bölüşdürülməsi inhisar mənfəətinin formalaşmasının ən mühüm amillərindən biri sayılır. Bundan başqa, dövlət inhisarçı kapitalizm şəraitində iri firmalar əslində xüsusilə geniş güzəştlərdən, imtiyazlardan, düzəlişlərdən, və təshih etmələrdən istifadə etməklə verginin ödənişi üzrə qanuni şəkildə təsbit olmuş imkanlara malikdir. Beləliklə, inhisar mənfəəti inhisar qiymətinin qoyulmasmm nəticəsidir. Ancaq belə hesab etmək olar ki, inhisarlar qiymətlərin maneəsiz kəskin və təhlükəli rəqabətdən qorxmadan qaldıra biior, çünki inhisar qiyməti nə qədər yüksək olarsa, bir o qədər rəqibləri inhisarlaşınış bazardan ayıran mancələr az olar. Inhisar qiymətlərinin yüksəlmə meylindən istifadə etməklə qeyri-inhisar müəssisələri «inhisar qiymətlərinin çətinliklər»i adlanmaqla nəinki fəaliyyət göstərirlər, həm də inhisarlarla rəqabət aparırlar. Bu da inhisarları qiymətlərin artırılmasının müəyyən maksimum həddindən saxlayır və beləliklə də onlar inhisar mənfəəti ilə məhdudlaşırlar.

Inhisar qiymətləri qeyri-inhisar qiymətlərindən nəinki quruluşuna görə, həm də dinamikliyinə görə fərqlənir. Inhisar qiymətlərinin əsas xüsusiyyətləri, onlar kənyuktura dəyişmələrinə görə böyük sabitliyə və möhkəmliyi malik olmasından ibarətdir. Əgər inhisarlar bazara öz qiymətlərini diktə edirlərsə və öz sərəncamlarında olan bütün vasitələrlə onu inhisar mənfəətini təmin edən səviyyədə saxlayır, onda iqtisadiyyatın qeyri-inhisar bölməsi üçün qiymətləri bazar özü tələb və təklif mexanizmi vasitəsilə müəyyənləşdirir. Lakin bu o demək deyildir ki, inhisar bazar dövriyyəsinin qanunauyğunluqlarının əksinə fəaliyyət göstərə bilər. Bazarda tələbin dəyişilməsinə cavab olaraq onlar ilk növbədə istehsalın səviyyəsini dəyişirlər, bu zaman qiymətin sabit saxlanılmasına çalışırlar. Bütün bu imkanlar qurtardıqdan sonra qiyməti dəyişirlər. Ancaq ki, qeyri-inhisar müəssisələri tələbin azalmasına cavab olaraq ilk əvvəl qiymətin aşağı salınması ilə başlayır, bu zaman istehsal sabit saxlamağa çalışır, adətən

ancaq bu imkan qurtardıqdan sonra onlar istehsalın ixtisar olunmasına gedirlər. Nəticədə inhisar qiymətləri bazar kənyukturasından asılı olaraq kənarlaşmaların daha az tezliyinə və dərinliyinə malik olurlar. Beləliklə, yüksək inhisar qiymətləri, aşağı inhisar xərcləri və qiymətıərin istehsal qiymətlərindən yuxarıya doğru kənaııaşması hesabına yüksək inhisar mənfəətini təmin edən istehsal qiymətlərinin gələcək mədifikasiyasıdır.

Yeni məhsula qiymətlərin formalaşmassnın iki metodu daha geniş yayılmışdır, -nisbətən yüksək («qaymaqyığma qiymətləri») və nisbətən aşağı qiymətlərin («müdafilə qiymətləri» və yaxud «kəsir qiymələri») qoyulması. Qiymətəmələgəlmənin bu və ya digər metodunun seçilməsi qabaqcadan hansı şərtləri müəyyən edir? Bu, aşağıdakı bir çox amillərin əlaqələndirilməsindən asılıdır: əmtəənin xarakteristikası (yenilik dərəcəsi, digər əmtəələrlə müqayisədə nisbətən mustəsnalıq kəsb etməsi, təyinatı, ənənəvi və tamamilə yeni təlabatların ödənilməsi) rəqabət şərtləri-patent müdafiyəsinin və yaxud mürəkkəb məxfi texnoloji proseslərin mövcud olması; əmtəə əvəzləyicilərin mövcudluğu və yaxud yaranma təhlükəsi; yeni əmtəənin bazarda hakimlıyinin gözlənilən davamlılığı; bazar şəraiti və satış şərtləri - qiymət üzrə tələbin elastikliyi, istehlakçı dairəsi və s.; firmanın bazarda fəaliyyətinə aid olan sair amillər (məs. onun maliyyə vəziyyəti, buraxılan məhsulun pətenklaturası vəs.)

Istehsalsı elə yeni məhsula yüksək qiymət qoyur ki, həmin məhsul hər hansı nadir xassələrə malik olmaqla digər qalan əmtəələrdən keyfiyyətcə fərqli funksiyalar yerinə yetirir. Bu zaman qiymət ilk əvvəl elit tələbatı təmin etmək üçün meyllənir, onun qurtarınası ilə qiymət tədricən aşağı düşür və əmtəə geniş istehlakçılar üçün özünə yol tapır.

Təbii inhisarların qaçılmaz mövcudluğu o demək deyil ki, onlar haqsız rəqabətə yol verməlidir. Onların fəaliyyəti, xüsusilə qiymət və güzəşt siyasəti dövlət tərəfindən tənzimlənməlidir. Təbii inhisarçıların sahibkarlara öz meyarları

ilə verdikləri güzəştlər haqsız rəqabətə gətirib çıxarır. Ona görə də Tarif Şurası ancaq qiymətlərin deyil, güzəştlərin də verilməsi meyarlarını müəyyələşdirməli, təbii inhisarçıların sahibkarlar arasında qoyduqları ayrı – seçkilik aradan qaldırılmalıdır.

Dövlət inhisarçılığından və təbii inhisarçılıqdan da təhlükəlisi sahə inhisarçılığıdır. Sirr deyil ki, bu gün hər bir sahədə inhisarçılıq var. Problemin kökü həmin sahəyə nəzarət edən icra orqanlarının rəqabətin məhdudlaşdırılmasına yönəldilmiş fəaliyyətlərinin nəticəsidir.

Deməli inhisarlaşma mövcuddur, baxmayaraq ki, o müsbət yaxud mənfi nəticələrlə müşayət olunur. Inhisarçılıq labüd olduğu hallarda, yəni onu aradan qaldırmaq mümkün deyilsə, dövlət bir başa təsir üsulu ilə mənfi nəticələri neytrllaşdırmağa çalışır.

Hər bir ayrıca bazarda inhisar və rəqabətin öz quruluşu və onların birindən digərinə keçmək dərəcəsi mövcuddur. Bu və ya digər bazar quruluşu növünün müəyyən edilməsi üçiin etibarlı meyarın tapılması özlüyündə mürəkkəb nəzəri problemlərdir. Lakin belə bir təsnifləşdirmənin bəzi əsas parametrlərini demək mümkündür.

1) sahədə əsas məhsul kütləsini istehsal edən iri inhisar birliklərinin nəzarət etdiyi kapitalın ölçüsü və təmərküzləşmə dərəcəsi;

2) həmin inhisar strukturunun bazarda reallaşdırdığı məhsulun xüsusi çəkism

3) istehsal proqramının xarakteri, ixtisaslaşma dərəcəsi, ETT-nin nailiyyətlərindən istifadənin səviyyəsi, marketinq sisteminin inkişaf dərəcəsi və təkrar istehsalm digər xüsusiyyətləri;

4) qiymətəmələgəlmənin prinsipləri, istehsal xərclərinin quruluşu, bazarda mövqe və rəqiblərin həmin sektoruna daxil olmasından müdafiənin digər şərtləri.

Inhisar qiyməti inhisar hökmranlığının daha qabanq şəkildə meydana çıxınasını əks etdirir. Həmin hökmranlıq dərəcəsindən isə bu qiymətə daxil olan mənfəətdən artıq kəmiyyət və onun həddi asılıdır. Başqa sözlə desək. istehsal qiymətindən inhisar qiymətinin kənarlaşması o vaxt böyük olacaqdır ki, inhisar daha sabit və daha güclü olsun. Lakin inhisarın hökmranlığı heç də mütləq və dəyişməz deyildir: bir sıra sahələrdə və yaxud bir sıra bazarlarda o daha güclüdür, digərlərində isə zəifdir. Bunun isə əsas səbəbi ondan ibarətdir ki, inhisarbu və ya digər bazarda və yaxud da təsərrüfat sahələrində rəqabətlə rastlaşır. O yerlərdə ki, inhisann öz hökmranlığmı artıq dərəcədə həyata keçirmək imaknı olur, ounu bazar və qiymətə təsiri o qədər yüksək olur ki, burada qiymət on yüksək olur ki, bazar uğrnnda kəskin mübarizə gedir və burada bir neçə inhisarların mənafeyi toqquşur və yaxud da güclü autsayderlər var, qiymətə belə təsir zəif olacaqdır. Rəqabəti baxmaq məqsədilə bazar uğrunda mübarizədə inhisar detpinq yolunu tuturlar, belə ki onlar öz məhsulunu istehsal qiymətlərindən aşağı qiymətlərə ixrac etməyə başlayırlar. Inhisarçı kapitalizm dövründə rəqabət müxtəlif forma və istiqamətlərdə təsirini davam etdirməklə mənfəət və qiymətin məlum bərabərləşməsinə təsir edir. Bazarda inhisann hökmranlığı özünü nə qədər güclü göstərirsə və deməli. onun mənfəəti nə qədər çox olursa, onda bu sahədə daha böyük mənfəət göstərmək imkanı olması rəqiblərin tezliklə buraya gəlməsinə təsir edir. Qiymətin inhisarlar tərəfindən kəskin dəyişkənliyi əmtəə-əvəzləyicilərinin rəqabətinə səbəb olur və onu gücləndirir, artırılmış qiymətlər üzrə təklif olunan məhsul istehlakının azalmasma və inhisar üçün digər arzuoiunmaz hallara gətirib çıxarır.

Inhisar qiymətləri qeyri-inhisar qiymətlərindən nəinki quruluşuna görə, həm də dinamikliyinə görə fərqlənir. Inhisar qiymətlərinin əsas xüsusiyyətləri, onlar kənyuktura dəyişmələrinə görə böyük sabitliyə və möhkəmliyi malik olmasından ibarətdir. Əgər inhisarlar bazara öz qiymətlərini diktə edirlərsə və öz

sərəncamlarında olan bütün vasitələrlə onu inhisar mənfəətini təmin edən səviyyədə saxlayır, onda iqtisadiyyatın qeyri-inhisar bölməsi üçün qiymətləri bazar özü tələb və təklif mexanizmi vasitəsilə müəyyənləşdirir. Lakin bu o demək deyildir ki, inhisar bazar dövriyyəsinin qanunauyğunluqlarının əksinə fəaliyyət göstərəf biləiior. Bazarda tələbin dəyişilməsinə cavab olaraq onlar ilk növbədə istehsalın səviyyəsini dəyişirlər, bu zaman qiymətin sabit saxlanılmasına çalışırlar. Bütün bu imkanlar qurtardıqdaq sonra qiyməti dəyişirlər. Ancaq ki, qeyri-inhisar müəssisələri tələbin azalmasına cavab olaraq ilk əvvəl qiymətin aşağı salınması ilə başlayır, bu zaman istehsal sabit saxlamağa çalışır, adətən ancaq Bu imkan qurtardıqdan sonra onlar istehsalın ixtisar olunmasına gedirlər. Nəticədə inhisar qiymətləri bazar konyukturasından asılı olaraq kənarlaşmaların daha az tezliyinə və dərinliyinə malik olurlar. Beləliklə, yüksək inhisar qiymətləri, aşağı inhisar xərcləri və qiymətıərin istehsal qiymətlərindən yuxarıya doğru kənaıiaşması hesabına yüksək inhisar mənfəətini təmin edən istehsal qiymətlərinin gələcək modifikasiyasıdır.

### 2.3. Təbii inhisar sahələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin spesifik cəhətləri və mexanizmləri.

Ölkəmizdə dövlətin antiinhisar fəaliyyəti əsasən iki istiqamətdə aparılır. Birinci istiqamət çoxluq təşkil edən və inhisarçılıq zəruri hesab edilməyən bazarlarda antiinhisar qanunvericiliyi əsasında həyata keçirilən istiqamət, ikinci istiqamət təbii inhisarların tənzimlənməsidir ki, dövlət tərəfindən onların iqtisadi davranış və fəaliyyətinə nəzarət etməklə yanaşı mövcudluğu mütləq hal kimi qəbul olunur. Təbii inhisarlar istehsalın texnoloji xüsusiyyətindən irəli gələrək rəqabətin olmadığı bazarda əmtəənin (xidmətin, işin) tələbini ödəmək üçün istehsalını həyata keçirən təsərrüfat subyekti və ya təşkilatlardır. Təbii

inhisarlaraın məhsulları, xidmətləri digər əmtəə və xidmətlərlə əvəz edilə bilinmədiyindən onlara tələb daim var və bu qiymət dəyişməsindən asılı olmayaraq demək olar ki, sabit qalır. Ona görə də təbii inhisar sahələri çox zaman dövlətin mülkiyyətində saxlanılır və belə sahələrə nəqliyyat, rabitə, kommunikasiya xidmətləri, enerjidaşıyıcılar və s. sahələr aid edilir. Inhisarın mövcud olduğu sahələrdə qiymətlərin dövlət tənzimlənməsi müasir dövrdə olduqca ziddiyyətli  və eyni zamanda əməli əhəmiyyət kəsb edən bir prosesə çevrilmişdir. Belə ki, bir tərəfdən dövlət özünün xarici iqtisadi mövqeyinə və milli iqtisadiyyatı çərçivəsində sosial vəziyyətinə  mənfi təsir edəcək inflyasiyanı azaltmağa və sosial-iqtisadi durumu sabit saxlamağa çalışaraq bir sıra təbii inhisar sahələrində (elektrik enerjisinin, su və qazın qiymətlərini, dəmiryol, poçt-teleqraf xidmət tariflərini və s.) qiymətləri tənzimləyir, digər tərəfdən isə dövlət təsərrüfat subyektsi olan və yaxud da iqsadiyyatda önəmli rola malik olan inhisarın  (məsələn, xammal hasilatı, strateji məhsul istehsalı ilə məşğul olan dövlət təsərrüfat subyektlər və s.) mənafeyinin müdafiəçinə çevrilir. Bu zaman qiymətlərin dövlət tənzimlənməsi həm milli iqtisadiyyatın inkişafında daxili tələbata, həm  də inhisarların maraqlarına və dünya bazarlarında onların mövqeyini qorumaq, onların innovasiyon struktur dəyişikliklərini, irəliləyişlərini, yüksək artım sürətini stimullaşdıran tədbirlərə əsaslanmalıdır. Ona görə də beynəlxalq təcrübəyə əsaslanaraq inhisar sahələrində qiymətlərin dövlət tənzimlənməsi metodları kimi qiymətlərin əmələgəlməsi prosesinə birbaşa dövlət müdaxiləsi (yəni maya dəyərinin tərkib elementlərinə təsir və s.), təsbit edilmiş güzəştli və sabit qiymətlərin təyini, qiymətlərə daim dövlət nəzarəti və rentabellik həddinin qoyulmasını və s. göstərmək olar. 1996-1997-ci illərdə Azərbaycan Respublikası iqtisadiyyatında rəqabətin inkişafının əsas istiqaməti istehsalın təmərküzləşməsinin aşağı salınması və bütün sahələrin inkişafı üçün zəruri şəraitin yaradılması kimi müəyyənləşdirildi. Bunun üçün isə təbii inhisar

subyektlərinin fəaliyyətinə dövlət nəzarəti və tənzimlənməsi sisteminin yaradılmasına dair müvafiq zəruri tədbirlər həyata keçirilməyə başlandı. 1996-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 109 saylı qərarı ilə «Azərbaycan Respublikasında təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi qaydaları haqqında» Əsasnamə təsdiq edildi. Amma bu əsasnamə təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsini sahəsində ilk addımlardan biri olduğu üçün artıq həmin ildə «Təbii inhisarların tənztimlənməs»» haqda qanun qəbul edildi. Nəticədə təbii inhisar subyektlərin fəaliyyətinin tənzimlənməsi üsulları kimi qiymətlərinin (tariflərinin) tənzimlənməsi; mütləq xidmət edilməli olan istehlakçı qrupların və onların əmtəəyə olan tələbatının tam ödənilməsi mümkün olmadıqda, təminatın minimum həddinin müəyyən edilməsi; əmtəə istehsalının həcminin müəyyən olunmuş göstəricilərinə əməl edilməsinin təmin olunması və nəhayət, təbii inhisar subyektləri tərəfindən tənzimlənməyən fəaliyyət sahələrinə ayrılan kapital qoyuluşunun razılaşdırılması istifadə olunmağa başladı. Təbii inhisar subyektlərinin qiymət və tariflərinin iqtisadiyyatda və onun inkişafında, rəqabətqabiliyyətliliyin təminində birbaşa təsirini nəzərə alaraq dövlət onların fəaliyyətinə nəzarəti gücləndirməyə başladı və nəticədə,təbii inhisar subyektləri dövlət tənzimlənmə orqanlarının qərarlarını, göstərişlərini və tələblərini yerinə yetirməyə və müəyyən olunmuş formada və qaydada fəaliyyəti haqqında cari hesabatı, maya dəyərinin maddi və əmək məsrəflərini əks etdirən kalkulyasiyanı və qiymətlərin (tariflərin) səviyyəsini, kapital qoyuluşlarının layihələrini və mülki hüquqi müqavilələrini və təsərrüfat əlaqələri haqqında məlumatları həm vergi orqanlarına, həm də inhisarçılıq fəaliyyətini tənzimləyən Iqtisadiyyat və Sənaye Nazirliyinə təqdim etməyə məruz qalırlar. Bazar iqtisadiyyatı şəraitində dövlət tənzimləmə orqanları tərəfindən konkret təbii inhisar subyektinin fəaliyyətini tənzimləmək üçün nəzərdə tutulan və sərf olunan məsrəflərin

səmərəliliyi qiymətləndirilir. Əsasən isə əmtəələrin istehsal (satış) xərcləri, o cümlədən əmək haqqı, xammal və materialların dəyəri, qaimə xərcləri; vergilər və tədiyyələr (sosial sığorta, yol fondu, məşğulluq fondu); ayrı-ayrı istehlakçı qrupların əmtəələrin istehsal olunduğu yerə yaxınlığı və uzaqlığı; istehsal olunan (satılan) əmtəələrin keyfiyyətinin istehlakçıların tələbinə uyğunluğu və digər bu kimi göstəricilər nəzərə alınır. Eyni zamanda təbii inhisar subyektinin müxtəlif qiymətlər (tariflər) üzrə əmtəələrin mümkün satışından əldə olunacaq mənfəət proqnozlaşdırılaraq zəruri hallarda dövlət dotasiyası və köməyinin digər tədbirləri də nəzərdə tutulur. təbii inhisar sahələrinin əsasən dövlətin mülkiyyətində olması səbəbindən onların əsas istehsal fondlarının dəyəri, investisiyaya olan tələbatları, amortizasiya ayırmaları kimi məsələlər vaxtaşırı gündəmə gətirilərək müzakirə olunmuşdur. Ümumən,15 dekabr 1998-ci ildə «Təbii inhisarlar haqqında» Azərbaycan Respublikasının qanununa əsasən təbii inhisar subyektlərinin fəaliyyətinin tənzimlənməsi müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir. Hazırda bütün enerji daşıyıcıların qiymətləri, telefon abonent haqqı, istilik təchizat xidmətləri, nəqliyyat tarifləri və əsas kommunal xidmətləri tarifləri təbii inhisar subyektlərinin fəaliyyət sahələri olduğundan dövlət tərəfindən tənzimlənir. Qeyd etməlyik ki, təbii inhisar sahələrində qiymətlərin təyini və tənzimlənməsi digər inhisar sahələrindən fərqlidir. Qloballaşma proseslərinin təsirini və rəqabət-qabiliyyətliliyin təmini nəzərə alınmaqla müasir şəraitdə təbii inhisara aid edilən infrastruktur sahələrinin (elektrik enerjisinin, qazın, kommunal xidmətlərinin, nəqliyyat xidmətlərinin və s.) qiymətlərinin dünya bazar qiymətlərinə yaxınlaş-dırılması və dövlətin müəyyən əhali qrupları üçün güzəşt və dotasiyalarının tədricən azaldılması və ləğvinin həyata keçirilməsi prosesi baş verir. Məlumdur ki, güzəşt və dotasiyaların bazar prinsiplərinin tələblərinə cavab vermədiyinə görə onların ləğvizəruri proses kimi qiymətləndirilməlidir. Lakin müasir dövrdə

yaşayış minimumunun cəmiyyəti bir qrup əhali təbəqəsinin minimum istehlak xərclərini ödəmədiyinə görə dövlət bu sahədə islahatları tədricən aparmaq zərurətində qalır. Bu səbəbdən hazırda real şəraiti nəzərə alaraq onların ödənilməsi sisteminin təkmilləşdirilməsi istiqamətində daha məqbull hesab olunur. Ümumilikdə son nəticədə bu proseslər sosial-iqtisadi həyatda öz təsirini ğöstərməklə təbii inhisar sahələrinin fəaliyyətinin dövlət tənzimlənməsinin xarakterik cəhətlərini müəyyənləşdirir. Bu da bir faktdır ki, son illər «Rəqabət Məcəlləsi»nin işlənməsi və təsdiqi, əlverişli investiya mühitinin yaradılması və inflyasiya amilləri sahəsində mühüm yer tutan təbii inhisar subyektlərinin (elektrik enerjisi, qaz, su, dəmiryolu, hava və su nəqliyyatı, rabitə və s.) tariflərinin tənzimlənməsi ilə əlaqədar Azərbaycan Respublikası Tarif (qiymət) Şurası tərəfindən «Qiymətləri dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) siyahısının» yeni layihəsinin təsdiqi, «Neft məhsullarının qiymətlərinin respublika daxilində tənzimlənməsi barədə» qərarın təkmilləşdirilməsi və ona düzəlişlərin edilməsi, «Təbii qazın torpdansatış, emal və nəql tariflərinin tənzimlənməsi barədə» qərara əlavə və dəyişikliklər edilməsi, «Su təchizatı və tullantı suları haqqında» qanuna düzəlişlərin edilməsi, və s. bu istiqamətdə atılan mühüm addımlardandır.

**Cədvəl 2.1.**

**Bəzi neft məhsullarının qiymətlərinin dinamikası**

| Göstəricilər | 30.06.1998 (AZM-lə) | 30.06.1998 müqa-yisə üçün AZN-lə verilir | 08.01.2007-dən indiyə qədər, AZN-lə |
|---|---|---|---|
| Mazut | 232000 | 46,4 | 100,00 |
| Reaktiv mühərriklər üçün yanacaq | 794728 | 146,9 | 307,00 |
| Avtobenzin AI-95 | 2358000 | 471,6 | 736,00 |
| Avtobenzin AI-92 | 2096000 | 419,2 | 670,00 |
| Dizel yanacağı | 952000 | 190,4 | 485,00 |

Cədvəl  məlumatlarından aydın olur ki, neft məhsullarının qiymətlərinin tənzimlənməsinə baxmayaraq onların qiymətlərində təqribi 2-3 dəfə artım olmuşdur. Bu da dünya bazarında neftin qiymətinin artımından irəli gəlmişdir.

Təbii inhisar sahələrindən digər heç də az əhəmiyyəti olmayan sahə təbii və mayeləşdirilmiş qaz istehsalı ilə bağlıdır. Ölkədə istehlakçılar qrupu üzrə təbii və mayeləşdirilmiş qazın qiymətinin dövlət tənzimlənməsi ilə bağlı həyata keçirilmiş tədbirləri ardıcıllıqla izlədikdə bu sahədə də qiymət artımını müşahidə etmiş olarıq. Hazırda  istehlakçılar qrupu üzrə təbii və mayeləşdirilmiş qazın qiymətiniaşağıdakı məlumatlardan görmək olar.

**Cədvəl  2.2**

**Təbii qazın topdansatış, emal və nəql tarifləri**

| **Sıra №si** | **Xidmətlərin adı** | **Tariflər 1000 $m^3$ üçün (ƏDV ilə) manatla** |
|---|---|---|
| 1. | Təbii qazın müvəkkil qaz satıcılarına topdansatışı | 42,0 |
| 2. | Təbii qazın emalı (“Azərbaycan Qaz Emalı” ASC üzrə) | 5,5 |
| 3. | Təbii qazın nəqli (hər 100 km məsafə üçün) | 2,0 |
| 4. | Magistral kəmərlərə birbaşa qoşulmaqla istehsal məqsədləri üçün təbii qaz istehlak edən kimya, alüminium, dağ mədən filizi əsasında polad əritmə, elektrik enerjisi istehsalı müəssisələri (aylıq istehlakı 15 milyon $m^3$-dən az olmamaq şərti ilə) | 42,0 |
| 5. | 4-cü bənddə göstərilən istehlakçılar üçün sabit haqq | 3,0 |

Qeyd etməliyik ki, Respublikada elektrik enerjisi istehsalı 20 elektrik stansiyada həyata keçirilir ki, onun 13-ü istilik, 7-si su elektrik stansiyalarıdır. Soba mazutu ilə müqayisədə  təbii qazın istifadəsi həm ekoloji baxımdan, həm də qiymət baxımından daha səmərəli olduğundan AR Dövlət Neft Şirkətinin

müraciəti əsasında 2011-ci ildə soba mazutunun hər tona görə topdansatış qiyməti vergi daxilolmaları ilə birgə 140 manat civarında təyin edlilmiş və imkan qədər soba mazutu təbii qazla əvəzlənməyə başlanılmışdır.

Neftin və qazın qiymətinin qalxmasının isə ölkəmizdə istehsal olunan enerjinin dəyərinə birbaşa təsir etdiyindən yerli istehsalın şəraitinin və əhalinin sosial durumunun yaxşılaşdırılması istiqamətində davamlı inkişaf baxımından enerjinin alternativ mənbələrdən alınması üzrə tədbirlərin həyata keçirilməsinin vacibliyi bir daha təsdiqlənir. Yəni yanacaq-enerji kompleklərinin daha bir problemi olan az xərclərlə elektrik enerjisinin istehsalını artırmaq məsələsinə nail olunur. Bu gün satışın həcminin artımını təmin edən qiymətin aşağı salınması sabah şirkətin əsaslandığı rəqabət mühitinin dəyişməsinə səbəb ola bilər[1]. Ona görə hazırda elektrik enerjisisnin alınması istiqamətləri kimi alternativ və bərpa olunan enerji mənbələrindən istifadə etməklə elektrik enerjisinin istehsalı məsələsinə diqqət yetirilir.

**Cədvəl 2.3**

**Azərbaycanda elektrik enerjisinin tarifləri**

| **Sıra №-si** | **Xidmətlərin adı** | **Tariflər 1 kVt/saat üçün (ƏDV ilə) qəpiklə** |
|---|---|---|
| 1 | **2** | **3** |
| **I.** | **Topdansatış tarifləri** | |
| 1.2. | “Azərenerji” ASC-nin istehsalı | 4,1 |
| 1.3. | Özəl kiçik su elektrik stansiyalarının istehsalı | 2,5 |
| 1.4. | Külək elektrik stansiyalarının istehsalı | 4,5 |
| **II.** | **Pərakəndə satış tarifləri** | |
| 2.1. | Bütün istehlakçılar üçün | 6,0 |

| 1 | 2 | 3 |
|---|---|---|
| **III.** | **Tranzit ötürülmə tarifləri** | |
| 3.1. | Elektrik enerjisinin tranzit ötürülməsi | 0,2 |
| **IV.** | **Enerji təchizatı birbaşa 35 və 110 kv xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kVt/saatdan az olmayan kimya və alüminium sənayesi müəssisələri, dağ mədən filizi əsasında polad əritmə istehsalı** | |
| 4.1. | Gündüz vaxtı (səhər saat 08.00-22.00-a qədər) | 4,2 |
| 4.2. | Gecə vaxtı (saat 22.00-dan saat 08.00-a qədər) | 2,0 |

Ümumiyyətlə, təbii inhisar sahələrindən olan elektrik enerjisi, qaz, su və nəqliyyat sahələrinin bir-biri ilə və iqtisadiyyatın bütün digər sahələri ilə qarşılıqlı zəncirvari asılılğı onların qiymət və tariflərinin iqtisadiyyatdakı tarazlığa, davamlı inkişafa və rəqabəqabiliyyətliliyə təsirinin dövlət tərəfindən həyata keçirilən makroiqtisadi siyasətdə nəzərə alınmasını zəruri edir.

## Fəsil III. Inhisarçı qiymətqoymaya dövlət müdaxiləsinin təkmilləşdirilməsi

### 3.1. Antiinhisar siyasətinin dünya təcrübəsi və onun əsas variantları.

Müasir şəraitdə əksər inkişaf etmiş ölkələrdə ticarət hüququ çərçivəsində inhisarçı fəaliyyətin gətirdiyi iqtisadi və sosial nəticələrin təsir gücünü azaltmaq məqsədilə rəqabət prosesinin dövlət tənzimlənməsi həyata keçirirlər. Bu sahədə əsasən aparıcı sahə isə antiinhisar qanunvericiliyinin işlənib hazırlanmasıdır.

Bir sıra tədqiqatçılar antiinhisar qanunlarının iki tipini fərqləndirirlər.

1. Inhisarın qadağan edilməsi prinsipi əsasında qəbul edilən qanunlar;

2. Inhisarçı biliklərə nəzarət sui–istifadə hallarının məhdudlaşdırılması prinsipi əsasında qəbul edilən qanunlar.

Bu istiqamətdə bölgü ABŞ və Avropanın antiinhisar qanunvericilik-lərdindəki fərqli elementlərə əsaslanır. Belə ki, ABŞ da antitrest qanunvericiliyi, Avropa sistemində isə bazarda hegemon mövqe tutan inhisarçı bilriklərin sui istifadə hallarının məhdudlaşdırılmasına yönəldilən və onların məcmu fəaliyyəti üzərində nəzarət prinsipinə əsaslanan antiinhisar qanunvericiliyi qüvvədədir.

Antiinhisar qanunvericiliyinin Avropa sistemində inhisarın yaradılması haqqında razılaşmaların növlərinin qeydiyyatı nəzərədə tutulur. O, eyni zamanda, rəqabətin əhəmiyyətli dərəcədə məhdudlaşdırılmasının özündə əks etdirir.

Antiinhisar qanunvericiliyinin Avropa sistemi Qərbi Avropa ölkələri ilə yanaşı, Avstraliyada, Yeni Zelandiyada, Cənubi Afrika Respublikalarında, Amerika sistemi isə Argentinada və bir sıra digər ölkələrdə tətbiq olunur.

Qeyd etmək lazımdır ki, AFR-nın antiinhisar qanunvericiliyi hər iki sistem arasında orta mövqe tutur. Bu hal ona görə ortalığa çıxır ki, həmin ölkənin antiinhisar qanunvericiliyi inhisara qoyulan qadağa üzrə ümumi qəbul edilmiş norma ilə yanaşı, bu prinsipdən çoxlu sayda istisnalar nəzərdə tutur.

Amerika sistemi çərçivəsində ilk antitrest qanunu 1883-cü ildə Alabama Ştatında qəbul edilmişdir. Sonrakı dövrlərdə əksər ştatlar tərəfindən analoji qanunların qəbulu ümumi ölkə miqyasında antiinhisar qanunvericiliyinin formalaşdırılmasına şərait yaratmışdır. Federal səviyyədə isə ilkin olaraq 1890-cı ildə Şerman qanunu qəbul edilmişdir. Bu qanunla ticarətin gizli inhisarlaşması, bu və ya digər sahədə tək başına nəzarətin əldə edilməsi, qiymətlər haqqında razılaşma qadağan edilir. Bu qanunda trest formasında birləşmə inhisarlaşma aparmaq uğrunda gizli sazişlər qadağan olunur. Qanunda göstərilir ki bir neçə ştat və ya ölkələrarası ticarəti inhisarlaşdıran və ya inhisarlaşdırmağa cəhd göstərən hər bir şəxs hüququ pozmuş hesab olunur və qüvvədə olan Cinayət Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq 50 min dollara qədər cərimə və ya 1 il müddətinədək azadlıqdan məhrum edilə bilər. 1914-cü ildə antiinhisar qanunvericiliyinin yeni inkişaf mərhələsi başlanmışdır. Belə ki, məhz həmin ildə Kleyton qanunu qəbul edilmişdir. Həmçinin bu ildə Federal Ticarət Komissiyası haqqında qanun da qüvvəyə mindi. ABŞ-ın antiinhisar qanunvericiliyi məhz bu üç qanun bazasında formalaşmışdır.

Araşdırmalar göstərir ki, ABŞ-ın antitrest qanunvericiliyinin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu qanunvericilik elə başlanğıc andan inhisarı qeyri-qanuni hesab etməklə qadağan edir. Amma, Qərbi Avropa qanunvericiliyi inhisarçı fəaliyyətin neqativ nəticələrini aradan qaldırmaq məqsədi ilə tənzimləmə prinsipi üzərində qurulmuşdur. Lakin, sonrakı inkişaf prosesləri ABŞ qanunvericiliyinin ifrat sərt formada tətbiqini qeyri-səmərəli olduğunu üzə çıxardı və bu istiqamətdə bir sıra "yumşaldıcı" vasitələrin tətbiqinə başlamışdı. Məsələn, 1911-ci ildə ABŞ Ali məhkəməsi tərəfindən qəbul edilən "ağıllılıq qaydası " belə vasitələrə aid edilə bilər. Ali məhkəmə Şerman qanununda qismən dəyişiklik etdi və qanunu ticarəti məhdudlaşdıran doktrinasının əhatə dairəsini azaltdı.

Eyni zamanda, qeyd olunmalıdır ki, antitrest tənzimləmə rejimi bir sıra müxtəlif məzmunlu və təyinatlı proseslərin təsiri nəticəsində dövri olaraq müəyyən dəyişikliklərə məruz qalır. Məsələn, siyasi hakimiyyətin bir partiyadan digərinə keçməsi, özəl sektora dövlət müdaxiləsinin güclənməsi yaxud zəifləməsi və s. bu qəbildən olan amillər sırasındadır.

Ingiltərənin antiinhisar qanunvericiliyinin inkişaf xüsusiyyətləri inhisarlara dövlət nəzarətinin iki sisteminin meydana çıxmasına səbəb olmuşdur. Qanuni ticarət və rəqabət haqında qanunlara əsasalanaraq formalaşdırılmış birinci sistemdə dövlət ticarəti üzrə Idarə, Inhisarlar üzrə Komissiya, Sənaye və ticarət üzrə Dövlət Katibi strukturları həlledici rol oynayırlar.

Məhdudlaşdırıcı ticarət praktikası üzrə qanunvericiliyə əsaslanan ikinci nəzarət sistemində əsas rolu isə məhdudlaşdırıcı ticarət praktikası üzrə məhkəmə oynayır.

Ingiltərənin ticarət və sənaye üzrə dövlət katibi inhisarçı fəaliyyətin və rəqabətin mühafizə olunmasında geniş səlahiyyətlərə malikdir. Belə ki, əgər inhisarlar üzrə komissiyanı qərarı məsləhətçi xarakter daşıyırsa, dövlət katibi inhisarçılıq yaxud haqsız rəqabət sahəsində son və qəti qərar qəbul etmək iqtidarındadır.

Fransanın antiinhisar qanunvericiliyində əsaslı dönüşün başlanğıcı 19 iyul 1977-ci il Qanunu ilə reallığa çevrildi. Bu qanunla bazardakı hegemon mövqedən sui-istifadə hallarına və qadağan edilmiş kartellərə qarşı cəza tədbirləri daha da sərtləşdirildi. Fransada ilk dəfə olaraq məhz həmin dövrdə istehsalın təmərküzləşməsi üzərində nəzarət təşkil edildi.

1986-cı ildə isə əvvəlkindən əhəmiyyətli dərəcədə fərqlənən yeni antiinhisar qanunvericilik qəbul edildi. Bu qanunvericilikdə əsas məsələlərdən biri qiymətlərin dövlət tərəfindən tənzimlənməsi idi. Eyni zamanda diqqət çəkən məqamlardan biri də dövlətin iqtisadi müdaxiləsindən imtina edilməsidir.

Aydındır ki, bununla da qiymətlərin tənzimlənməsi və qiymətqoyma, inflyasiya ilə mübarizə bütövlüklə bazar mexanizminin öhdəsinə buraxılmış oldu.

Fransada inhisarçı fəaliyyət üzərində nəzarəti rəqabət məsələləri üzrə Şura, Iqtisadiyyat Naziri və məhkmələr həyata keçirirlər. Rəqabət məsələləri üzrə Şura müstəqil inzibati orqan hesab olunur və onun qərarlarına iqtisadiyyat nazirliyinin veto qoymaq hüququ yoxdur.

Bundan başqa Fransada inhisarçı fəaliyyət üzərində şəraitin mühüm hissəsi bazarda iqtisadi təmərküzləşməsinin yoxlanılması üzərinə düşür. Iqtisadiyyat Nazirliyinin təşəbbüsü ilə rəqabət məsələləri üzrə Şura tərəfindən istənilən təmərküzləşmə haqqında layihə yaxud müəssisələrin təmərküzləşmısi yoxlanıla bilər. Aydındır ki, bu halda təmərküzləşməsni rəqabətə mənfi təsiri, əsas də bazarda hegemon mövqenin yaradılması yaxud gücləndirilməsi əsas kriteriya kimi götürülür.

Almaniyada antiinhisar qanunvericiliyi isə qeyd etdiyimiz kimi Amerika və Avropa sistemləri arasında orta mövqe tutur. Bu ölkədə antiinhisar qanunvericiliyinə stimullaşdırıcı təsiri II Dünya müharibəsindən sonra qərarlaşmış azad bazar iqtisadiyyatı həyata keçirmişdir. 1949-cu ildə iki qanun layihəsi işlənib hazırlanmışdır: Effektivliyin yüksəldilməsi yolu ilə rəqabətin təminatı haqqında və Inhisarlar üzrə idarələr haqqında. Bu istiqamətdə aparılan fəaliyyətin nəticəsində Kartel qanunu kimi tanınan "rəqabətin məhdudlaşdırılmasına qarşı" Qanun (1957) olunmuşdur. Son illərdə antiinhisar qanunvericiliyini daha da təkmilləşdirmək məqsədi ilə Kartel Qanununa çoxlu sayda düzəlişlər edilmişdir. Hal-hazırda həmin qanun 1989-cu il redaktəsi ilə qüvvədədir.

Almaniyada Kartel Qanunu iki prinsipə əsaslanır: qadağa və inhisarçı fəaliyyətin tənzimlənməsi və nəzarət prinsipləri.

Almaniyada ifrat inhisarlaşmanın neqativ nəticələrini yumşadılması istiqamətində bazar münasibətlərinin dövlət tənzimlənməsini Kartellərin işi üzrə orqanlar həyata keçirir. Bu orqanlara Kartellərin işi üzrə Federal Idarə, Iqtisadiyyatın Federal Naziri və torpaqların ali orqanları aiddir. Kartellərin işi üzrə orqanlar müəssisələrə, kartellərə, sənaye və prosessional assosiyasiyalara qarşı inzibati, cərimə tədbirləri həyata keçirə yaxud təhqiqat apara bilərlər.

İnzibati üsulla müdaxilədə bir qayda olaraq, kartel müqavilələrinə icazə verilməsi yaxud qadağan olunması, müəssisələrin qovuşması haqqında müqavilələrin qeyri-qanuniliyi, bazarda hegemon mövqe tutan müəssisənin qeyri-qanuni davranışının qadağan olunması haqqında məsələlər həll edilir.

İsraildə isə öz xüsusi cəhətləri ilə digərlərindən seçilən antiinhisar qanunvericiliyi tətbiq edilir. Digər ölkələrdən fərqli olaraq, Sahibkarlıq azadlığı haqqında qanun Israildə əsas qanun kimi tanınır. Bu baxımdan Israildə biznes sferasında fəaliyyətin məhdudlaşdırılmasına yönəldilən, başqa sözlə sırf antiinhisar mahiyyəti daşıyan qanun 1988-ci ildə qəbul edilmişdir. Bu qanun "Sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılması" haqqında qanundur. Qanun üç istiqaməti özündə əks etdirir:

Kartel sazişləri, inhisar və şirkətlərin birləşməsi.

Kartel sazişləri 2 istiqamətdə nəzərdən keçirilir:

1. Yazılı şəkildə (müqavilə)
2. Tərəflərin müəyyən davranış tərzi formasında.

Eyni zamanda, hansısa şirkət kartel fəaliyyətinə uyğun addımlar atırsa, o hətta həmin sazişin iştirakçısı olmasa da, kartelin tərəflərindən biri kimi qəbul edilir. Digər tərəfdən, yalnız bir halda sözü gedən qanunun təsir dairəsindən uzaqlaşmaq olar: Razılaşmanın qanuna müvafiqliyi gözlənildikdə.

Kartel sazişində iştirak etmək istəyən subyekt mütləq xüsusi orqanların razılığı almalıdır. Bu qanuna əməl edilməsi, üzərində nəzarət iki əsas orqan

tərəfindən həyata keçirilir: Sənaye və ticarət Nazirliyinin nəznində olan sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılması üzrə Müvəkkil və sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılması üzrə Məhkəmə. Kartel sazişinin müddəti məhkəmə tərəfindən cəmi 3 illə məhdudlaşdırılır:

Israil qanununa görə şirkətlərin birləşmə prosesini məhdudlaşdırılması aşağıdakı göstəricilər əsasında həyata keçirilir.

1.Birləşmə istəyində olan iki şirkətin illik satış həcmi 150 mln. şekeldən çox olarsa;

2.Birləşmiş şirkətin əmtəə və xidmət bazarında payı 50%-dən yüksək olarsa, yaxud istehsalın 50%-nə nəzarət edərsə;

3.Əgər birləşməkdə olan iki şirkətdən biri inhisarçıdırsa.

Maraqlıdır ki, bu şirkətlərin yalnız daxili bazarda satış həcmi əsas götürülür. Xarici iqtisadi dövriyyə isə kənarda qalır.

Israil qanununa əsasən, birləşmə qərarına gəlmiş şirkətlər Müvəkkildən əvvəlcədən icazə almalıdırlar. Bu icazə əgər 30 gündən çox müddəti əhatə edərsə və bu vaxt ərzində hər hansı bir qərar çıxarılmazsa, onda bu razılıq kimi qəbul olunur.

Inhisar fəliyyətinin məhdudlaşdırılması isə yuxarıda qeyd etdiyimiz 50%-lik limitlə əsaslandırılır. Inhisarçı fəaliyyətin məhdudlaşdırılmasında əsas məqsəd ictimai zərərin qarşısını alınmasıdır.

Sənayecə inkişaf etmiş ölkələrin qanunvericilik təcrübəsi göstərir ki, haqsız rəqabət və inhisarçı fəaliyyətin qarşısını alınmasının hüquqi tənzimlənməsi müxtəlif mənbələrə əsaslanaraq formalaşır. Bununla, antiinhisar və haqsız rəqabətin aradan qaldırılması haqqında qanunlar (Avstriya, Ispaniya, Kanada, Almaniya, Isveçrə); Antiinhisar qanunları və haqsız rəqabətin qarşısını alınması sferasında mülki hüququn ümumi normaları (Italiya, Fransa); Antiinhisar yaxud antitrest qanunları və haqsız rəqabətin qarşısını alınması sferasında məhkəmə

nəzarəti (ABŞ, Ingiltərə) aiddir. Inkişaf etmiş ölkələrin antiinhisar qanunvericiliyinin tədqiqi antirəqabət mahiyyəti daşıyan aşağıdakıların müəyyən edilməsinə imkan verir:

1.Rəqabətin şaquli məhdudlaşdırılması.

2.Rəqabətin üfüqi məhdudlaşdırılması

3.Bazarda hegemon mövqedən sui-istifadə və s.

Rəqabətin şaquli məhdudlaşdırılmasında adətən məhdudlaşdırıcı şərtlər birtərəfli qaydada qəbul edilir, yəni bu halda tərəflərarası güc bərabərsizliyi öndə olur. Belə ki, bazarda hegemon mövqe tutan sahibkar daha zəif olan sahibkara öz şərtlərini qəbul etdirir.

Rəqabətin şaquli məhdudlaşdırılması kateqoriyasına hər şeydən əvvəl, müstəsna ticarət əməliyyatları haqqında müqavilələr, yenidən satış üzrə qiymətqoyma yaxud onun dəstəklənməsi, sənaye obyektləri üzərində hüququn ötürülməsi haqqında müqavilələrdə məhdudlaşdırıcı şərtlərin olması və s. aid edilir.

Rəqabətin üfüqi məhdudlaşdırılması eyni səviyyədə məhsul (xidmət) bölgüsü yaxud istehsalla məşğul olan tərəflər arasında müqavilə bağlanmasını özündə əks etdirir. Bu hal ikitərəfli sazişlərdən tutmuş çoxtərəfli sazişlərə qədər, yəni sadədən mürəkkəbə doğru müxtəlif variantlarda ola bilər.

Rəqabətin üfüqi məhdudlaşdırılmasının tipik nümunəsi kartel müqavilələridir. Bu müqavilələr bir qayda olaraq qiymətin diktə edilməsini, satış bazarını bölüşdürülməsi kimi, eləcə də özünəməxsus ticarət şəraitinin yaradılması istiqamətində inhisaryaradan prosesləri özündə əks etdirir. Hətta bu müqavilələrdə onun tələblərini yaxud müqavilə öhdəliklərini pozan tərəfin inzibati sanksiyaya məruz qalması da qeyd edilir.

Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, rəqabətin üfüqi və şaquli istiqamətli məhdudlaşdırılmasını heç də həmişə bir-birindən ayırmaq,

fərqləndirmək mümkün olmur. Məsələn, sənaye mülkiyyəti üzərində hüququ münasibətdə tətbiq edilən çarpaz lisenziyalaşdırma yaxud rəqib firmaların bir-birini öz mallarının müstəsna distributoru təyin etməsi bu qəbildən olanlar sırasındadır.

Sənayecə inkişaf etmiş ölkələrdə bazarların inhisarlaşması əsasən iki yolla həyata keçirilir: üfüqi inteqrasiya, yəni rəqib müəssisənin əldə edilməsi və şaquli inteqrasiya, yəni özünün təchizat və satış sisteminin yaradılması.

Rəqabət aparan kompaniyanın əldə edilməsi də antirəqabət səciyyəsi daşıyır. Ticarətlə məşğul olan korporasiyanın başqa bir korporasiyanın əmlakını yaxud səhmdar kapitalının bir hissəsini və ya hamısını əldə etmək hüququ yoxdur.

Ümumiyyətlə, qərb ölkələrində antiinhisar qanunvericiliyi və antiinhisar siyasəti geniş şəkildə inkişaf etmiş və artıq uzun illər ərzində nəticələri üzərində nəzarət mexanizmi müvəffəqiyyətlə həyata keçirilir.

Sözsüz ki, antiinhisar qanunvericiliyi və antiinhisar siyasəti heç də qüsursuz deyildir. Yəni, bu baxımdan inhisarın ümumi şəkildə qadağan olunması və bu qadağandan istisnalarla xeyli "yumşaldılır" və bu istisnalar həm ayrıca götürülmüş kompaniyaya, həm də bütövlükdə bir sahəyə aid edilir. Bununla yanaşı, ABŞ və Qərbi Avropa ölkələrinin antiinhisar siyasəti ciddi şəkildə düşünülmüş, iqtisadi cəhətdən əsaslandırılmış formada həyata keçirilir.

Antiinhisar siyasətinin dünya təcrübəsində araşdırılan problemlə bağlı xüsusi elmi maraq doğuran nəticə iqtisadi regionalizmlə əlaqədardır. Bu mənada dünyanın ən dinamik inkişafda olan inteqrasiya blokunun - Avropa Ittifaqının təcrübəsi xüsusi əhəmiyyət kəsb edir. Avropa Ittifaqında antiinhisar siyasəti 1990-cı illərdən başlayaraq geniş yayılmağa başlamışdır.

Hal-hazırda, Avropa Ittifaqının antiinhisar siyasətinin əsas çıxış nöqtəsi təsərrüfat subyektinin hegemon mövqeyindən doğan nəticələrə əsaslanır. Əgər,

bu halda tələbə uyğun olaraq mal çeşidi vaxtlı-vaxtında yeniləşirsə, bazara daxil olan məhsulların rəqabət qabiliyyəti, keyfiyyət səviyyəsi yüksəlirsə, onda antiinhisar tədbirlərinə əl atılmır. Başqa sözlə, inhisarçı strukturlar əks-inhisarlaşma prosesinə məruz qalmırlar.

Qeyd etmək lazımdır ki, Avropa Ittifaqında inhisar yaradan proseslərlə mübarizə əsasən və başlıca olaraq bazar subyektlərinin qovuşması, birləşməsi yönlüdür və eyni zamanda, bu aspektdə antiinhisar tədbirlərinə əl atmanın özü də müəyyən çərçivə ilə məhdudlaşdırılır.

Avropa Ittifaqının Qanunvericiliyində birləşmə prosesləri üzərində antiinhisar nəzarətini iki orqan həyata keçirir: Komissiya və Avropa məhkəməsi. Eyni zamanda, üzv olan ölkələrin bura qarışması imkanları da mövcuddur. Belə ki, bunun üçün iki istisna nəzərdə tutulur:

1. Əgər üzv-ölkə Komissiyaya sübut edə bilsə ki, birləşmə onun daxili bazarının hər hansı bir seqmentində rəqabətin normal gedişinə maneə yarada bilər;

2. Rəqabətə aidiyyət olmayan məsələlərdə Komissiya ilə paralel surətdə hərəkət edə bilər.

Firmaların birləşməsinin qiymətləndirilməsində Komissiya iki istiqamətdə hərəkət edir:

1. Birləşmənin bazarın strukturuna təsiri;

2. Birləşmənin blokdaxili rəqabətə təsiri.

Əgər birləşmə Avropa Ittifaqı iqtisadi məkanında rəqabətin normal gedişinə əhəmiyyətli dərəcədə təsir göstərirsə, onda həmin müqavilə qadağan edilir. Bununla yanaşı, firmanın hegemon mövqedə olmasını qiymətləndirmək üçün Komissiya həmin subyektin fəaliyyət göstərdiyi mal bazarını müəyyənləşdirir və onun coğrafi xarakteristikasını nəzərə almaqla hegemon mövqenin mövcud olub-olmamasını dəqiqləşdirir.

## 3.2.Azərbaycan iqtisadiyyatında antiinhisar və qiymət siyasətinin əsas istiqamətləri

Antiinhisar siyasətinin həyata keçirilməsi metodları baxımından Azərbaycan da daxil olmaqla əksər MDB ölkələri demək olar ki, eyni mövqedə dayanırlar. Antiinhisar siyasəti əsasən aşağıdakı istiqamətlərdə müvafiq metodlardan istifadə etməklə həyata keçirilir:

I Məhdudlaşdırıcı tədbirlər,

II Iqtisadi təmərküzləşmənin güclənməsi üzərində nəzarət.

III Haqsız rəqabətin qadağan olunması.

IV Antiinhisar nəzarətinin vasitəsi kimi reyestrdən istifadə edilməsi.

Məhdudlaşdırıcı tədbirlər bir qayda olaraq, antiinhisar orqanı tərəfindən antiinhisar qanunvericiliyini pozan təsərrüfat subyektlərinin fəaliyyətinə tətbiq edilir.

Bu tədbirlər əsasən inhisarçı fəaliyyətin və haqsız rəqabətin qadağan olunmasını özündə əks etdirir.

Inhisarçı fəaliyyətə qoyulan qadağa iki istiqamətdə olunur:

1. Rəqabəti məhdudlaşdıran sazişlərin qadağan edilməsi;

2. Bazar subyektinin hegemon mövqedən sui-istifadə etməsinin qadağan olunması.

Qeyd etmək lazımdır ki, müasir şəraitdə elə ən çox rast gəlinən hal məhz bazar subyektinin hegemon mövqedən sui-istifadə etməklə rəqabəti məhdudlaşdırmaq cəhdidir. Eyni zamanda, rəqabətin məhdudlaşdırılması istiqamətində tez-tez rast gəlinən inhisarçı hərəkətlər sırasına qarşı tərəfə sərfəli olmayan müqavilə şərtlərinin qəbul etdirilməsi, qiymətin əmələ gəlməsi qaydalarına riayət edilməməsi, müəssisələrin razılaşdırılmış hərəkətləri də daxildir. Ümumiyyətlə, antiinhisar qanunvericiliyi aşağıda göstərilənlərin hamısını qadağan edir:

1. Əmtəəni (xidməti) dövriyyədən çıxarmaqla süni surətdə qıtlıq yaradılmasını və bu əsasda da qiymətlərin artırılmasını;

2. Inhisar mövqeyindən yüksək yaxud aşağı səviyyəli qiymətqoyması;

3. Sərfəli olmayan müqavilə şərtlərinin qarşı tərəfə qəbul etdirilməsini;

4. Müqaviləyə ayrı-seçkilik xarakterli şərtlərin daxil edilməsini;

5. Digər müəssisələrin bazara daxil olması və bazarı tək etməsinin əngəllənməsi yaxud onu reallaşdıran sazişlərin bağlanmasını.

6. Müəyyən qrup alıcı yaxud satıcılarla heç bir əsaslı səbəb olmadan müqavilə bağlamaqdan imtina etmək;

7. Qiymət razılaşmaları;

8. Alıcı kontingenti, satıcılar, məhsul çeşidi yaxud ərazi əlamətləri üzrə bazarın bölüşdürülməsi haqqında sazişlər.

Eyni zamanda, qeyd etmək lazımdır ki, milli bazarda effektiv rəqabət mühitin formalaşmasına əks təsir göstərən amillər sırasında beynəlxalq rəqabət gücləri xüsusi yer tutur. Məhz bu nöqteyi-nəzərdən ölkədə fəaliyyət göstərən Transmilli Korporasiyaların (TMK) davranış tərzi bütünlüklə antiinhisar nəzarətinin əhatə dairəsində olmalıdır. Ümumiyyətlə, müasir dünya təcrübəsindən çıxış etməklə TMK-ların bütövlükdə milli iqtisadiyyata mənfi istiqamətli təsirini aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. TMK-lar böyük rəqabət gücünə malik olmaqla milli iqtisadi subyektlərin bazar fəaliyyətini məhdudlaşdırmaq və bununla da onların dinamik inkişafını dayandırmaq iqtidarındadır.

2. Transmilli kapitalın sərbəst miqrasiyası ölkədə maliyyə sabitliyini

poza və milli valyutanın normal fəaliyyətinə əngəl törədə bilər ki, nəticədə milli iqtisadi təhlükəsizlik sistemi ciddi şəkildə “zədələnə” bilər.

3. TMK-lar super iqtisadi gücündən yararlanmaqla ölkə hökumətinin fəaliyyətini öz maraqları çərçivəsinə salmağa ümummilli mənafelərin təminatına zidd istiqamətə yönəltməyə qadirdirlər və s.

Ümumi şəkildə götürsək antiinhisar siyasəti inhisarçı fəaliyyətə nəzarət → məhdudlaşdırma → aradan qaldırmaq xətti üzrə həyata keçirilir.

Ilkin olaraq antiinhisar nəzarətinin çıxış nöqtəsi təsərrüfat subyektlərinin birləşməsi, qovuşması nəticəsində meydana çıxan hegemon mövqe hesab olunur.

Qanunvericiliyə uyğun olaraq, hegemon mövqe birləşən təsərrüfat subyektlərinin müvafiq mal bazarında payı 35%-dən yaxud onların aktivlərinin ümumi dəyəri minimum əmək haqqı məbləğinin 75 min mislindən çox olduqda formalaşmış hesab olunur. Bu baxımdan ümumi aktivlərinin dəyəri minimum əmək haqqının 50 min mislindən çox olan müəssisələrin ləğvi, eləcə də həmin müəssisələrin bölünməsi üzərində də antiinhisar nəzarətinin təşkil olunması nəzərdə tutulmuşdur.

Subyektinin davranış tərzinin rəqabətə mənfi təsirinin aradan qaldırılması, inhisarçı fəaliyyətin məhdudlaşdırılması istiqamətində qanunda əks etdirilən üsullar əsasən təbii inhisarların tənzimlənməsi üçün istifadə oluna bilərlər. Başqa sözlə, "Antiinhisar fəaliyyəti haqında" qanunda tədavül sferasında yaranan və fəaliyyət göstərən inhisarların davranış tərzi diqqətdən kənarda qalmışdır.

Ümumiyyətlə, təbii inhisarlarla bağlı dövlət tənzimlənməsinin əsas istiqamətləri yaxud mövcud problemlərini aşağıdakı kimi qruplaşdırmaq məqsədəuyğun olardı:

1. Təbii inhisarların strukturunu təkmilləşdirilməsi prosesinin başa çatdırılması zəruriliyi;

Ümumiyyətlə, bu istiqamətdə səmərəli antiinhisar nəzarətinin həyata keçirilməsinə mane olan əsas amil iki funksiyanın eyni zaman intervalında sıx əlaqəli formada tətbiqidir. Belə ki, məsələn, Rabitə Nazirliyi həm bu sferada

dövlət tənzimlənməsi həyata keçirir, həm ayrı-ayrı strukturlara fəaliyyət göstərmək üçün lisenziya verir, həm də birgə müəssisələrin təsisçisi kimi bir başa sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Ümumiyyətlə, Azərbaycanda iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə qəbul edilməsi zəruri olan qanunları həmin sahələrin idarəetmə strukturları hazırlayırlar ki, bu da qətiyyən düzgün hesab edilə bilməz. Bu praktikadan bir mənalı şəkildə əl çəkilməlidir.

2. Təbii inhisar probleminə yanaşmada antiinhisar nəzarətinin tətbiqini çətinləşdirən və gerçək vəziyyətin üzə çıxarılmasına mane olan başlıca problemlər sırasına inhisarçılıq nöqteyi-nəzərindən "təbiilik" keyfiyyəti daşıyan qurumların düzgün qiymətləndirilməsi yaxud fərqləndirilməsi, seçilməsi məsələsi də daxildir. Əslində bu problem də elə struktur dəyişikliklər istiqamətindən qiymətləndirilməlidir. Yəni, söhbət ondan gedir ki, " Təbii" inhisarçılığın mahiyyətinə uyğun gəlməyən iqtisadi subyektlər "Təbii inhisarlar haqqında" qanunun əhatə dairəsinə süni surətdə salınmalıdırlar. Məsələn, "Azərenerji" SC-nin "Azərenerji tikinti" təşkilatının, eləcə də "Azal"–ın təyyarə limanı xidmətləri istisna olmaqla bütün yerdə qalan fəaliyyətinin və s. təbii inhisarçılıqla heç bir bağlılığı yoxdur.

3. Özünə məxsus fəaliyyət istiqamətləri nöqteyi-nəzərindən təbii inhisarçılığa aidiyyatı olmayan, lakin onun fəaliyyət sferasına daxil olan funksional fəaliyyəti tamamilə dövlət tənzimlənməsinin təsir dairəsindən kənarda qoymaq da düzgün mövqe sayılmamalıdır. Sözsüz ki, bu sferada "Antiinhisar fəaliyyəti haqqında" qanunun tələbləri çərçivəsində tənzimlənməli və onun üzərində antiinhisar nəzarəti təşkil olunmalıdır.

4. Məhz ən mühüm problemlərdən biri də, mümkün olan istiqamətdə rəqabətin yaradılması və intensivləşdirilməsi problemidir. Məsələn, əvvəlki fəsildə də qeyd etdiyimiz kimi, mobil telefon xidmətləri bazarında kartel

razılaşmaları mövcuddur. Amma, bütövlükdə rabitə xidmətləri bazarını götürsək, onda birmənalı olaraq inhisarçılıgın mövcudluğunu görməmək mümkün deyil.

Milli bazarda antiinhisar siyasətini regional və dünya bazarları ilə qarşılıqlı əlaqə tətbiqi, yaxud antiinhisar siyasətinin regional aspektlərini ölkədaxili iqtisadi səmərəliliyin yüksəldilməsinə istiqamətləndirilməsi və rəqabətqabiliyyətliyinin artırılması məqsədi ilə aşağıdakıların həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

1. Ölkənin ümummilli mənafelərinin regional və qlobal səviyyələrdə təminatına nail olmaq üçün qanunverici bazanın təkmilləşdirilməsi məqsədilə kompleks tədbirlərin işlənib hazırlanması və tətbiqi;

2. Ölkənin iqtisadi potensialının canlandırılması, işgüzar aktivliyin yüksəldilməsi nöqteyi-nəzərindən idxal tariflərinə yenidən baxılması zərurəti; O mənada ki, idxal tarifləri rəqabətqabiliyyətli istehsal sahələrini təşkilinə və inkişaf əngəl törətməsin.

3. Ölkədə analoqu olan malların idxalında həm tarif, həmdə qeyri-tarif maneələrin tətbiqi, həmin malların idxalı üçün xarici kreditorlara dövlət zəmanətinin verilməsi praktikasından imtina edilməsi;

4. Xarici ölkə hökumətləri tərəfindən subsidiyalaşdırılan ixracatın milli bazarda formalaşmasına çalışan effektiv rəqabət mühitinə mənfi təsirini qaradan qaldırmaq, rəqabət şəraitinin bütün bazar subyektləri üçün eyni, bərabər imkanlar yaratmasına nail olmaq; Bu məqsədlə ən effektiv tədbir subsidiyalaşdırılmış ixracata xüsusi idxal rüsumlarının tətbiqi ola bilərdi.

5. Qarışıq müəssisə və təşkilatlarda şaquli inteqrasiyanın stimullaşdırılması.

6. Maliyyə kapitalının, ticarət-satış şəbəkəsinin, istehsal və elmi-texniki potensialın korporativ strukturlarda birləşməsi yaxud qovuşmasına qoyulan məhdudiyyətlərin aradan qaldırılması.

7. Müstəqil fəaliyyət göstərmək gücündə olan maliyyə-sənaye qruplarının formalaşmasına dövlət dəstəyinin təşkili.

## 3.3. Təbii inhisar şəraitində dövlətin qiymətlərə təsir mexanizminin təkmilləşdirilməsi.

Təbii inhisara münasibətdə dövlət siyasətinin bir neçə variantlan mövcuddur ki, onların heç birini "ideal" hesab etmək olmaz:

I variant. Qiymətlər dövlət tərəfindən əmtəənin son hədd xərcləri səviyyəsində qoyulur. Dövlət bu qiymətlərlə tələbin tam ödənilməsini inhisarlara öhdəçilik kimi qəbul etdirir.

Siyasətin bu variantının üstünlüyü ondan ibarətdir ki, qiymət son hədd xərclərinə bərabərdir və buna görə də məhsul buraxılışının strukturunda səmərəliliyə nail olunur.

II variant. Dövlət qiymətləri son hədd xərclərindən fərqli və əsasən yüksək səviyyədə müəyyən edir. Dövlət həmçinin bu qiymətlərlə tələbin tam öyrənilməsini inhisarlara öhdəçilik kimi qəbul etdirir. Bu variantın üstünlüyü büdcə dətasiyasına ehtiyacın aradan qaldırılmasından ibarətdir. Onun çatışmamazlığı isə qiymətlərin son hədd xərclərindən yüksək olması ilə əlaqədar məhsul buraxılışının strukturunda səmərəliliyə nail olunmamasıdır. Inhisar tərəfindən buraxılan məhsulun isiehsalı olduqca azdır.

III variant. Ilk iki variantın üzvi əlaqəsidir. Onu elektroenergetikanın timsalında nəzərdən keçirək. Istehsal müəssisələrinə buraxılan elektrik enerjisinə görə ödənişlər əksər hallarda ikistavkalı tariflər üzrə müəyyən edilir. Ödənişlərin birinci hissəsi istehlak edilmiş elektrik enerjisinin kəmiyyətinə, ikinci hissəsi isə clektrik avadanlığının birləşdirilmiş gücünə mütənasibdir. Dövlət istehlak edilmiş bir kilovattsaat elektrik enerjisinə görə onun istehsalına və nəqlinə son hədd xərcləri səviyyəsində qiymətləri müəyyən edə bilər. Bir kilovat birləşdirilmiş

güco görə ödənişi dövlət o ölçüdə müəyyən edə bilər ki, elektrik enerjisi istehsalçılarının ümumi gəliri (elektrik enerjisinə görə ödənişlər daxil olmaqla) onların xərclərini tam ödəsin. Beləliklə, buraxılışm strukturunun səmərəliliyi şərti (elektrik enerjisinin qiymətinin son hədd xərclərinə bərabərliyi) yerinə yetirilir, eyni zamanda dövlət dətasiyalarına ehtiyac duyulmur.

Təbii inhisarlara münasibətdə dövlət siyasətinin nəzərdən keçirilən varianıları ümumi çatışmamazlıqlara malikdir. Nəzərdə tutulur ki, dövlət orqanları faktiki xərclərdən bəzi növ izafi xərcləri çıxarenaqla xərclərin "əsaslandırılmış" səviyyəsini müəyyən etmək qabiliyyətinə malikdirlər. Təbii inhisarlarda isə xərclərin aşağı salınması dövlət qiymətlərinin aşağı salınmasına gətirib çıxardığına görə xərclərin aşağı salınması üçün heç bir ciddi stimul yoxdur.

Ona görə də dövlət siyasətinin dövlət qiymətlərinin qoyulmasını nəzərdən tutmayan IV variantını nəzərdən keçirək. Dövlət hərrac keçirir və dövlət büdcəsinə maksimum ödəniş məbləği köçüməyi öhdəsinə götürən müəssisəyə məhsul və ya xidmət növünü istehsal etmək hüququ verir. Eyni zamanda dövlət tərəfindən qiymətlərin və məhsul buraxılışının birbaşa tənzimlənməsi həyata keçirilmir.

Lakin gəlir həddi isə xərc həddidir. Buna görə də mənfəətin maksimumlaşdırılması şərti aşağıdakı kimidir:

Xalis şəkildə inhisar və ya inhisarçılıq çox nadir haldır. Lakin bir çox bazarların bir-birilə ancaq bir neçə fimıalar rəqabət artırır. Bu bazarlarda firmaların qarşılıqlı olaqəsi çox mürəkkəb ola bilər və heç də nadir hallarda olmayaraq rəqabət strategiyasının müxtəlif aspektləri ilə bağlıdır. Lakin firmalar qiymatə təsir edə bilərlər və xərc hədlərinin müəyyən edərək mənfəət əldə edə bilərlər. Bu cür firmalarda inhisarçılıq hakimiyyəti vardır. Biz indi inhisarçılıq hakimiyyətini müəyyən edən iaktərlan, onun ölçülməsi kriteriyalanm araşdıraq.

Xalis (təkmil, yetkin) rəqabət firması və inhisarçı hakimiyyətli firmalar arasında vacib fərqləri yada salaq: rəqabət firması üçün qiymət xərc hədlərinə yəni P=MC-ə bərabərdir. Inhisarçı hakimiyyətli tlrma iiçiin isə qiymət xərc həddini üsiəiəyən ölçüdür.

Xüsusi haqda qiymətin xərc həddindən üstələməsi əmsalmdan istifadə edə bilərik. Həmin əmsal qiymətəmələgəlmə zamanı "böyük barmaq" qaydasının bir hissəsidir. Verilmiş üsul, inhisarçılıq hakimiyyətini müəyyən edən üsul 1934-cü ildə Abba Lerner adlı iqtisadçı tərəfindən təklif olunmuşdur və Lerner inhisarçı hakimiyyət göstəricisi adını aldı Lerner əmsahnın rəqəm mahiyyəti həmişə 0 və 1 arasındadır. Xalis rəqabət də olan firma üçün nə qədər çoxdursa, inhisar hakimiyyəti də bir o qədər çoxdur.

Verilmiş inhisarçılıq hakimiyyəti əmsalı həm də (eləcədə) tələb elastikliyi terminində də əks oluna bilər. Qiymətəmələgəlmə üçün "böyük barmaq" qaydasını etdirən düstura görə biz bilirik ki, yada salaq ki, $E_d$ firmanın tələbinin elastikliyini bildirir, daha bazar tələbinin yox. Bəs inhisarçılıq hakimiyyətinin mənbələri hansılardır? Başqa sözlə bəzi firmalar daha çox inhisarçılıq hakimiyyətinə malikdir, bəziləri az, digərləri ilə ümumən malik deyillər. Lernerin əmsalının tələb elastikliyi ilə ifadə olunan düsturuna görə firma üçün tələb nə qədər az elastikdirsə, firma daha çox inhisarçılıq hakimiyyətinə malikdir. Inhisarçılıq hakimiyyətinin yeknn səbəbi nəticə olaraq firma üçün tələbin elastikliyidir.

Firma üçün tələbin elastikliyinin üç amil müəyyən edir.

Birincisi bazar tələbinin elastikliyindən ibarətdir. Firmanın özünün tələbi heç olmasa, ən azı bazar tələbi kimi elastik olacağı və buna görə də bazar tələbinin elastikliyi inhisar hakimiyyətinin pətensiallıq məhdndlaşdınr.

Ikinci amil - bazarda firmaların sayıdır. Əgər orada firmalar çoxdursa, çox az ehtimal olunar ki, hər hansı bir firma qiymətə əməli (əsaslı) şəkildə təsir edə bilmiş olsun.

Üçüncü amil firmalar arasında qarşılıqlı əlaqələrdən ibarətdir. Hətta əgər bazarda ancaq iki və ya üç firma varsa. onlarda heç biri qiyməti çox yuxarı (bir neçə dəfə) qaldıra bilməz, əgər onlar arasında rəqabət aqressiv xarakter dasıyır, hər bir firma bazarın daha çox hissəsini tutmağa can atır.

Əgər bazarda ancaq yeganə bir firma varsa, yəni xalis inhisar mövcuddursa, və onun tələb əyrisi bazar tələbi əyrisinə uyğun gəlirsə, onda firmanın inhisarçılıq hakimiyyətinin dərəcəsi tam şəkildə tələbin elastikliyindən asılıdır. Lakin çox vaxt elə olur ki, bir neçə firma bir-birilə rəqabət aparır, yəni inhisarçılıq rəqabəti mövcud olur. Bu zaman bazar tələbi hər birfirma üçün tələbin elastikliyini aşağı həddini müəyyən edir.

Ikinci amilə görə hər bir firmanın inhisarçılıq hakimiyyəti bazarda firmaların sayının artması həddi üzrə aşağı düşür. Yənı bir-birilə nə qədər çox firma rəqabət aparırsa, bir o qədər hər bir firma üçün qiyməti artırmaq çoıin olur və reallaşma həcminin azalması itkisindən qurtulmaq məsələsi mürəkkəbləşir.

Firmanın rəqabət strategiyası inhisarçılıq hakimiyyətinin həlledici faktorudur. Belə ki, firmalar öz aralarında rəqabəti gücləndirə bilərlər və sövdələşmələrə görə bilərlər yəni müxtəlif cür qarşılıqlı əlaqədə ola bilərlər. Bunlara əsasən onu yekun olaraq qeyd etmək lazımdır ki, bütün digər şərtlər dəyişməz qanunda firmalar aqressiv şəkildə rəqabət aparanda inhisarçılıq hakimiyyəti aşağıdır, əksinə əməkdaşlıq etdiyi zaman bu hakimiyyətin səviyyəsi yüksək olur.

Müasir dövrdə kapitalist iqtisadiyyatında müxtəlif növ kapitalların gəlir fərmalarını özündə əks etdirən inhisar və adi mənfəol növləri fəaliyyət göstərir. Mənfəətin bu növlərinin fərqləri onların ümumiliyini kənar etmir. Irmisar

mənfəəti öz mənşəyinə görə orta mənfəətli çevnlmış Ibmıasıdır. çıxı.ş nöqləsi - əlavə dəyərin formasıdır. Çıxış elementə görə o, adi kapitalist mənfəəti və onun əmələ gəlmə şəraitini (əlavə dəyərin yaranması, "normal" istehsal xərcləri-istehsal olunmuş məhsulların orta mənibətini təmin edən qiymətlə) şərtləndirir.

Mənfəətin artıqlığı artıq bu zaman -canlı əməyin həddindən artıq istismarına və keçmiş (maddiləşmiş) əməyin daha səmərəli ıstifadəsinə (ıstehsal miqyasında qənaət və s.) yönəlmiş əsasda yaranır. Hökmran inhisar mənasibətləri sistemli imkan verir ki, iri kapitalın üstünlüklərindən on oaşlıeası ondan ibarətdir ki, o inhisarluşmada əlavə dəyər yaradır o, baza əsasmda əlavə nıonfbəti inhisar mənlbətinə çevirir. Inhisar mənibətı və inhisarsız kapital vahid birləşmədə əlavə dəyərlə formalaşır. Belə vahidliyin mövcudluğu orta mənfəətin inhisarın hökmranlağı şəraitində fəaliyyət edib, etməməsi sualına cavab vermir. Müasir kapitalst iqtisadiyyatında mənfəət normasına müxtəlif istiqamətli qüvvələr təsfr edir. Mənfəət normasım bərabərləşmədə saxlayan bütün inhisar hədlər. Ictimai təkrar istehsalın formalaşması mexanizmasının vacib hissəsi olmaqla, bərabərləşməyə obyektiv meyli ləğv edə bilmirlər. Müasir şəraitdə bazar qüvvələrinin hərəkəti (özünün və digər sahənin kapitalının rəqabət təzyiqi, beynəlxalq rəqabət) o qədər güclüdür ki, o, mənfəət normasına yönəldilmişdir. Məsələn, iqtisadi cəhətdən həddindən artıq iri kapital üçündə xarakterik cəhətdir ki, o yeni bazarlan zobt etməyə və yeni perspekü̈vli məhsullar istehsalına mənsub olmağa çalışır. Orta mənfəət inhisarlaşmış iqtisadiyyatda təşəkkül tapmışdır. O, sərbəst rəqabət şəraitində orta mənfəət normasından keyfiyyətcə fərqlənən bir sıra xüsusiyyətlərlə xarakterikdir.

Ilk əvvəl mənfəətin sahəvi norması əvvəldə olduğu kimi ayrı-ayrı fərdi nəmıalarda cəmlənmişdir. Ancaq bu zaman ayrılıqda təşkil edən (sahənin inhisar liderIGrinin mənfəət norması xüsusilikdə) sahələr çox zaman orta səviyyəni ötüb keçir.

Inhisarçı kapitalist (inhisarlaşmış sahələr üzrə.) uzun dövr ərzində fərdi (və ya sahəvi) mənfəət normasını rəqabət qüvvələrinin hərəkətində saxlamaq mümkün olur. Əlavə dəyərin inhisarlaşmış istehsal şərtləri onlara imkan vermir ki, o orta ictimai şərtlərə çevrilsin.

Ikinci, inhisar bazarı clə məhsullarla dəlndnr ki, bunların isichsalda pıs şərtlənir (məsələn, neft inhisan təcrübəsi). Bu zaman "əsasız sosial dəyər əmələ gəlir" onun əvəzini cəmiyyət verir. Əvəzinə böyük miqdarda digər sahələrin məhsullan ilə şərtlənən əmək vermək məcburiyyətində qalır.

Bütün hallarda iqtisadi nəticə oxşardır. Cəmiyyət məcburdur ki, istehsal olmuş məhsula görə böyük dəyər ödəsin. Başqa cür desək, cəmiyyətdə bolluq yaratmaq üçün böyük miqdarda əmək sərfi tələb olunur. Ancaq ki, cəmiyyət özünün imkanı daxilində olan istehsal pətensialınıdan tam istifadə etməklə, əmək sərf edə bilərdi.

Inhisarçı kapitalın üstünülükləri istehsal prosesində təfəiq olunur və dəvriyyə sferasında inkişaf edir, bu zaman inhisarçı hökmraniığı münasibətləri inhisarçı qiymətlər sistemi vasitəsilə həyata keçirilir.

Kiçiklərlə müqayisədə iri firmalar, istehsal sferasında üstünlüklərə malikdir və o, istehsal həcmində sadə qənaətlə bağlıdır. Istehsal olunmuş məhsulun həcminin artılırması müəssisənin ölçüsünün artırılrnası ilə şərti olaraq məhsul vahidinin daimi xərcləri azaldır. Bundan başqa iri şirkətlər, ixtisaslaşmış işçi qüvvəsinə malik olmaqla, onlarda yaxşı idarə edici kadrlar da cəmləşib. Bu idarəedici kadrlar istehsalın yaxşı təşkili hesabına və dövriyyə xərclərinin aşağı sahnması hesabına istehsalda əlavə qənaət əldə edirlər. Iri firmalar da müasir istehsal vasitələri cəmləşib ki, bu istehsal vasitələri öz yüksək qiymətləri ilə kiçik şıirkətlərə imkansızlıq yaradır. Bununla bərabər iri şirkətlər ETT nailiyyətlərindən istifadə etməklə yeni texnələgiyaya öz vaxtında keçmək üçün maliyyə resurslarına malikdir. Iri şirkətlərin həm də istehsal olunmuş məhsulun

satışı sahəsində çoxlu sayda üstünlükləri vardır. Əsasən burada istehsal da inhisar qiymətlərinin qoyulması üçün inhisar mövqeyindən istifadəninin həlledici rolu vardır. Tələbin hazırlığı üçün reklamın böyük əhəmiyyəti vardır ki, bəzən bunun dəyəri satışdan gələn gəlirin 40%-nə qədər çatır. Bundan başqa iri firmalar kredit alanması vaxtı güzəştli şərtlərə malikdirlər. Biznesdə nəhənglərin hesabına mənfəətin bölüşdürülməsi inhisar mənfəətinin formalaşması amillərini on başlıcalarından biridir. Hələ dövlət - inhisarçı kapitalazm şəraitində iri firmalar güzəştlər düzəlişlər və təzhih etməklə verginin ödəniş üzrə qanunlaşdırılmış imkanlara malikdirlər.

Beləliklə, inhisar mənfəəti inhisar qiymətinin qoyulmasının nəticəsidir. Ancaq hesab etmək olmaz ki, inhisar qiyməti maneəsiz olaraq kəskin və təhlükəli rəqabətdən qorxmadan qaldıra bilər, inhisarçı qiymətlər nə qədər yüksək olarsa, o qədər rəqabətçiləri inhisar bazarından ayıran maneələr aşağı olar.

Inhisar qiymətlərinin artırılması meydli inhisarlaşmamış müəssisələr inhisar qiymətlər çətiri adalandırmaqla nəinki fəaliyyət göstərirlər, həm də inhisarlarla rəqabət aparırlar. Bu da inhisarçını qiymətlərin artırılmasının maksimum həddində saxlayır və bununla da inhisarçı mənfəətlə məhdudlaşır.

Inhisarçı qiymətlər inhisarsızla onunla fərqlənir ki, burada nəinki quruluş, həm də dinamika sabiıliyinə və möhkəm kənyunkturalı dəyişkənliyi vardır.

Əgər inhisar bazarı öz qiymətini diktə edirsə və ixtiyarında olan bütün vasitələrlə onu səviyyədə saxlayırsa, bunula inhisarçı mənfəəti təmin edir, bazarın inhisarsız bölməsi isə tələb-təklif mexanizması vasitəsilə özü əsasən qiyməti müəyyənləşdirir. Ancaq bu məlum etmir ki, inhisar bazar dövriyyəsi qanunauyğunluğuna baxmayaraq fəaliyyət göstərə bilər. Bazarda tələbin dəyişməsi ilə onlar ilk növbədə istehsalın səviyyəsini dəyişirlər, bu zaman qiymətin sabit saxlanmasma çalışırlar. Bütün bu imkanlar qurtardıqdan sonra qiyməti dəyişirlər. Ancaq inhisarlaşmış müəssisə tələbin azalamasına ilk öneə

qiymətin aşağı salınması ilə başlayır, bu zaman istehsalı sabit saxlamağa çalışır, adətən, ancaq bu imkan qurtardıqdan sonra onlar istehsalın azalmasma gedirlər. Nəticədə inhisar qiymətlər bazar kənyunkturasından asılı olaraq az tezliklə və dərin dəyişkənliyə malik olurlar.

Beləliklə, inhisarçı - yüksək qiymətlər gələcəkdə istehsal qiymətlərinin mədifikasiyasıdır, inhisarçı-yüksək mənfəət az xərclər və istehsal qiymətindən qiymətin yüksək artımı hesabına təmin olunur.

Inhisarçı - yüksək qiymətlərin aşağı həddini istehsal qiymətlərini hesab etmək olar. Bu lıədd əhəmiyyətli tərəddüd diapazonudur, istisna hallarda inhisarçı qiymət müvəqqəti olaraq istehsal qiymətindən aşağı düşə bilər. Qiymətin yuxarı həddinə gəldikdə isə, o hər bir ayrıca hallarda mövcud bazarda rəqabət və inhisar qüvvələr uyğunluğunu müəyyənləşdirir, hazırkı vaxtda inhisarların öz aralarında rəqabətin kəskinliyi dərəcəsidir.

Beləliklə, inhisar qiymətlərin yuxarı həddi belə səviyyədədir ki, onun artinlması digər inhisar üçün sərfəli olnr və yaxud da bir çox iri və xırda istehsalçılar bazara aşaği qiymətlə çıxırlar və yaxud mövcud inhisarlaşmış sahəyə uygun bazara daxil olmaq üçün kütləvi kapıtal axmı baş verir.

Qiymətlərin səviyyəsinin mümkün yüksək həddinin balanslaşdırılması (belə ki, bu yüksək hədd elə olmalıdır ki, bu sahəyə digər inhisar və autsayderlər tərəfmdən kapital axınına səbəb olmasın) həmçinin rəqabətçilər bacarıqlılar fərqlənirlər. Bu inhisarçı siyasətin qiymət sahəsində başlıca məqsədidir. Əgər inhisar bu həddən kənara çıxarsa, və digər inhisar birlikləri ilə müqayisədə uzun müddət yüksək mənfəət əldə edərsə, bunula belə rəqabətin yəlunda müdafiə səddi götürülür və bu sahəyə digər inhisarın kapital axını olar. Bunun nəticəsində qiymətlər inhisarçı qiymətlərin aşağı həddindən də aşağı düşə bilər. Əgər rəqabətçilər arasında "qiymətlər müharibəsi" başlayarsa, aşağı düşmə daha çox

olar. Elə buna görə də inhisar yüksək rəqabətə davamlılığı ilə fərqlənir. Ona görə də inhisarçı - yüksək mənfəət əldə edirlər, digər istehsalçıların əllərini bağlayırlar.

Beləliklə bazarı itirmək qorxusu və bunula da inhisarçı - yüksək mənfəəti itirmək qorxusu inhisarçı qiymətin hərəkətinin yuxarı həddini müəyyənləşdirir.

Inhisarlaşmış sahələrdə qiymət əmələ gəlmənin müxtəlif aspektləri arasında ən çox diqqəti cəlb edən məsələ qiymətin keyfiyyəti nəzərə alınmaqla, əmtəələrin istehlak xassələri və qiymət uyğunluğu üçota alanmaqla müəyyənləşdirilir. Bu onunla bağlıdır ki, iqtisadiyyatın bütün sahələrində ETT tezləşdirilməsi şərtləri istehsal olunan məhsulların intensivləşdirilməsini tələb edir.

Ictimai əmək bölgüsünün inkişafi əmtəə və xidmət istehsalını ictimailəşdirir. Daha doğrusu, həmin inkişaf digər əmtəə istehsalçılarının ictimai tələbatının ödənilməsi üçün həyata keçirilir. Əmtəə-pul münasibətləri bu problemin həlli mexanizmi sayılır. Istehsal, xüsusilə də elmi-texniki inqilab şəraitindəki istehsal mürəkkəb mexanizmə çevrilir ki, bu mexanizmin də fəaliyyəti həm ayrı-ayrı şəxslərin və həm də bütövlükdə cəmiyyətin daha böyük marağını ifadə edir. Istehsalın ictimai tənzimlənməsinin təşkilinə və həyata keçirilməsinə, əmtəə və xidmətlərin reallaşmasına və istehsalma obyektiv tələbat meydana çıxır. Əgər bunlar cəmiyyət tərəfindən nəzarətsiz qoyulursa, onda həm millətə və həm də bütiin bəşərıyyütə ziyan vurmaga qabil olan istehsal növləri yaranacaqdır. Məsələn. atəm və kimyəvi silahların istehsalı, ekələji cəhətdən zərərli olan məhsul növiərinin istehsalı və istehlakı. Bütün bəşəriyyətin ümumi təbii resurslarının — dünya əkeanının, kəsmik və hava fəzalarının, torpağın və s. istifadəsində ümumi davranış normalarının qoyulmasına tələbat meydana çıxır. Əmtəə və xidmətlərin istehsalının, sauşı və istehlakının tənzimlənməsi həm ayrı-ayrı şəxslərin səviyyəsində, həm də firmalar, müəssisələr, rcgionlar, ölkələr, qrup ölkələr və bütövlükdə dünya iqtisadiyyatı üçün zəruridir.

Bazar heç də həmişə mürəkkəb sosial-iqtisadi ziddiyyətləri həll edə bilmir. Daha doğrusu, onların əmlə gəlməsinə şərait yaradır. Lakin bir sıra iqtisadi rıçaqlarla, xüsusilə də iqtisadi proseslərin ictimai tənzimləmə metodları ilə əlaqədə bazar həmin ziddiyyətlərin daha sadə və səmərəli həlli yəllarını tapmağa imkan verir. Corc Sərəsun qeyd etdiyi kimi, bazar mexanizminin gözəlliyi onda deyildir ki, o, səhvlərdən qaça bilir, ondadır ki, o, tənzimləycilərin səhvləri istisna olmaqla həmin səhvləri düzəldə bilir. Kompleks sistemlərin tənzimlənməyə ehtiyacı vardır. Maliyyə sistemi ağlagəlməz dərəcədə mürəkkəbləşmiş və onun tənzimlənməsi getdikcə daha beynəlmiləl xarakter alır. Digər ölkələrlə xarici iqtisadi əlaqələrin genişlənməsi dünya iqtisadiyyatının tənzimlənməsi ilə məşğul olan beynəlxalq təşkilatlarda Azərbaycanın iştirakı üçün üzvi surətdə zəmin yaradır.

Iqtisadi həyatın tənzimlənməsində dövlət kənarda qala bilməz. Inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində dövlətin müəssisə və sahibkarların fəaliyyətinə müdaxilə etməsi əsas etibarilə dülayı xarakter daşıyır. ü, təsərrüfat subyektlərinə bilavasitə maliyyə və vergi sistemindəki qanunvericilik məhdudiyyətləri ilə, mütləq ödəmələr və dövlət investisiyası ilə, subsidiya və kreditlərlə, sosial və iqtisadi prəqramların həyata keçirilməsi ilə təsir göstərir.

Dövlət tənzimlənməsi bir tərəfdən, cəmiyyət üçün zərərli sayılan iqtisadi fəaliyyətin (məsələn, narkotik maddələrin istehsalı və satışı) məhdudlaşdırıcısı kimi, digər tərəfdən isə bəzi sahibkarlıq formalarınm (məsələn, fermer təsərrütatına, iqtisadi fəaliyyətin kiçik formalarına, investisiyaya istiqamətləndirilən gəlirləri vergidən azad etmə və s.) inkişafina köməklik göstərən təkanverici kimi çıxış edə bilər. Iqtisadiyyatın dövlət tənzimlənməsinin ümdə məsələsi cəmiyyətin, ilk növbədə isə sosial müdafiəyə ehtiyacı olan əhali təbəqəsinin marağını qorumaq, gələcək nəslin maraqlarını müdafiə etmək və ətraf mühiti qorumaqdır.

Dövlətin iqtisadiyyata təsirinin başlıca növlərindən biri qiymət tənzimlənməsidir. Qiymətlər tələb və təklifin nızamlanmasının əsas aləti kımı istehlakçının (alıcının) imkanlarını istehsalçının (satıcının) pula olan tələbi ilə bağlamaqla eyni vaxtda çox mühüm bir sosial funksiyanı — sərvət və xidmətlərin istehlak strukturuna və həcminə, xərclərə, həyat səviyyəsinə, yaşayış minimumuna, ailənin istehlak büdcəsinə təsirini yerinə yetirir. Qiymət səviyyəsinə və onun dəyişməsinə əhali kütləsinin reaksiyası xüsusilə həssas olur.

Bazar iqtisadiyyatında qiymətin əmələ gəlməsini çox vaxt "yelkənsız və sükansız" gəmiyə bənzədənlər səhv edirlər. Ilk növbədə ona görə ki, qiymətlərin sadəcə olaraq qaldırılması makroiqtisadi mövqedən əlverişsiz və məqsədəuyğun olmadığı halda belə, qiymətlərin öz-özünü tənzimləmə sistemi mövcuddur. Istehsalçı təkcə bu gün deyil, sabah da bazarda möhkəm mövqeyə malik ülmaq üçün qiymətlərın səviyyəsinin optimallaşdırılınasında maraqlıdır. Bu cür qiymətlər sistemi çox mürəkkəbdir, onu sadələşdirmək olmaz, çünki bu sistem təkeə firmadaxili informasiyaya əsaslanmır, o, həm də bazar infrastrukturu institutlarından daxil olan xarici informasiyaların çox geniş təbəqəsini əhatə edir. Ikincisi, inkişaf etmiş bazar iqtisadiyyatına malik ölkələrdə də dövlət iqtisadi fəaliyyətin bu çox mühüm sahəsinə tənzimləyici təsir göstərir. Bundan ötrü xüsusi inzibati-hüquqi mexanizmlər yaradılır.

Planlı iqtisadiyyatda islahatların aparıldığı ılk dövrlərdə bazar iqtisadiyyatında qiymətəmələgəlmə prosesinin özbaşına getməsi fikri geniş yayılmışdı. Keçid dövründə tədricən təcrübə qazanıldıqdan sonra aydın oldu ki, qiymət siyasəti, qiymətəmələgəlmə iqtisadiyyatın tənzimlənməsi mexanizminin daimi təsir obyektıdir. qiymət isə iqtisadi, sosial, siyasi həyaun bölıran nöqtələrindən biri olub, istehsalçı və istehlakçıların, təpdansatış və porakondəsatış ticarətçilərinin. idxalçı və ixracatçıların maraqlarınm təqquşma nöqtəsidir. Bu isə o deməkdir ki, qiymətlər hər kəsi maraqlandırdığına görə

partiya və paıiamentlərdə, hökumətlə siyasi paıiiyaların danışıqlarında, beynəlxalq müzakirələrdə bu sahədə böyük mübahisələr baş verir.

Dövlət bütün əmtəə növlərinin qiymət dəyişmələrini daim izləməli, həmin dəyişmələrin səbəblərini təhlil etməli, daxili qiymətəmələgəlmo proseslərinə birbaşa və yaxud dolayı yəlla təsir göstərməlidir. Bu zaman qiymətlərin səviyyəsinə və dinamikasına bütövlükdə iqtisadiyyatın vəziyyətini xarakterizə edən göstərici kimi baxılmalı, qiymətlərə təsir isə bütün iqtisadi şəraitin inikşafma təsirin tərkib hissəsi kimi götürülməlidir.

Hazırkı şəraıtdə qiymətlərin dövlət tənzimlənmusi ziddiyyətli məsələlərdən biridir. Bir tərəfdən döviət orqanları daxili sosial gərginlikləri kəskinləşdirən və ölkənin xarici iqtisadi vəziyyətinə mənfi təsir göstərən inflyasiya proseslərinin inkişafmı cilovlamağa çalışırlar. Digər tərəfdən isə dövlət inhisarların mənafeyinin ifadəçisi kimi müxtəlif yolların maraqlarını müdafiə edir. Ümumən, qiymətlərin düvlət tənzimionməsi qanunvericilik, inzibati və büdcə-maliyyə tədbirlərinin köməyi ilə qiymətlərə təsir etmək cəhdidir. Bu yəlla dövlət iqtisadi sistemin sabit inksşatma, başqa sözlə, qiymətlər vasitəsilə təkrar istehsalın dövrü tərəddüdlərinin nizamlanmasına nail olmağa çalışır. Kənkret təsərrüfat quruluşundan (konyukturasından) asılı olaraq qiymətlərin tənzimlənməsi mahiyyəti etibarilə böhrana qarşı (durğunluğa qarşı) və inflyasiyaya qarşı xarakterli ola bilər.

Qiymətlərin ümumi səviyyəsini sabit saxlamaq dövlətin mühüm funksiyalarından biridir. Çünki, qiymətlərin artım tempinin, yəni inflyasiyanın tempinin yüksək olması istehsalın tənəzzülünü dərinləşdirir. Belə ki, hiperinflyasiya şəraitində müəssisələr üçün gələcək işləri planlaşdırmaq və düzgün qərarlar qəbul etmək qeyri-mümkün olur. Inflyasiya müasir dünyanın on kəskin sosial-iqtisadi problemlərindən biridir. Ikinci dünya müharibəsinə qədər inflyasiya fövqəTadə şəraitdə əmələ gələn (əsasən dövlətin hərbi xərcləri

maliyyələşdirdiyi müharibə dövründə) qısamüddətli bir proses kimi xarakterizə olunurdu. Hal-hazırda isə o, xronikı hal alaraq təkrar islehsalın daimi aiributuna çevrilmişdir. Hazırkı şəraitdə bütün ölkələrdə dövlətin yürütdüyü siyasətdə untiinilyasiya tədbirləri mühüm yer tutur. Istehlakla yıgım, tələblə təklil, dövlətin məxarici ilə mədaxili, pul kütləsi ilə təsərrüfatın real ehtiyacları arasındakı disproporsiya yüksək templi inflyasiyaya gətirib çıxanr. Intlyasiyanın həddindən artıq güclü olduğu bir şəraitdə pul faktiki olaraq özünün bütün funksiyalarını yerinə yetirə bilmir.

Qiymətləri sabitləşdirmək dedikdə onlan dəndurmaq nəzərdə tutulmur. Bazar münasibətləri şəraitində hey vaxt məhsulların qiymətləri dondurulmuş vəziyyətdə qalmır. Burada qiymətlər gah qalxır, gah da ki, enir. Qiymətlər dondurulduqda öz funksıyalarını yerinə yətirə bilmir. Dinlət çalışmalıdır kı, qiymətlərin ümumi səviyyəsi həddindən artıq aşağı düşməsin və həddindən artıq yüksəlməsin. Bununla belə qiymətlərin dövlət tənzimlənməsi yalnız antiinflyasiya əhəmiyyəti daşımır. Dövlət qiymətləri tənzimləməklə həm də gəlirlərin yenidən bölgüsünə nail olur. Məlumdur ki, bazar münasibətləri şəraitində dövlətin funksiyalarından biri də gəlirlərin bölgüsü zamanı meydana gəlmiş qeyri-bərabərliyi azaltmaqdan ibarətdir. Dövlət qiymətləri tənzimləməklə əhalinin az təminatlı təbəqələrinin real gəlirlərinin sabit qahnası üçün şərait yaratmağa çalışır. Başqa sözlə desək dövlətin qiymətin əmələ gəlməsi prosesinə müdaxiləsi sosial müdafiə üçün zəruridir. Həmçinin xarici istehsalçılarla rəqabət aparınağa hazır olmayan müəssisələrın müdatiəsı və beynəlxalq iqtisadi olaqələrdən maksimum faydalanmaq üçün də dövlətin qiymətin əmələ gəlməsinə müdaxiləsi tələb olunur.

Ümumiyyətlə, qiymətlərin tənzimlənməsi makroiqtisadi tənzimləmənin tərkib hissəsidir. Bazar münasibətləri şəraitində qiymət bir tərəfdən iqtisadi prosesləri idarə etmək vasitəsi kimi çıxış edir, digər tərəfdən isə özü dövlət

tərəfindən tənzimlənir. Qiymətləri tənzimləməkdə məqsəd gəlirləri ədalətli, resursları isə səmərəli bölüşdürməkdən ibarətdir. Qiymətlərin dövlət tənzimlənməsi gəlirlərin və resursların: 1.sahələrarası. 2.regionlararası. 3.sektorial (özəl sektor və dövlət sektoru). 4. əhalinin müxtəlif təbəqələri arasındakı bölgüsünə həlledici təsir göstərir. Qiymətlər dövlət tərəfindən tənzimlənməzsə tələblə təklif arasındakı uyğunsuzluqlar dərinləşə bilər.

## Nəticə və təkliflər.

Müasir dövrdə respublika iqtisadiyyatında inhisarlığın tənzimlənməsi və antiinhisar siyasətinin tətbiqi prosesi ümumilikdə iqtisadiyyatımızın dayanıqlı inkişafı baxımından çox mühüm əhəmiyyət kəsb edir.

Eyni zamanda iqtisadiyyatın dinamik inkişafı inhisarçılıq fəaliyyətinin düzgün tənzimlənməsi və antiinhisar siyasətinin effektiv həyata keçirilməsindən daha çox asılıdır.

Ölkə iqtisadiyyatında antiinhisar siyasətinin hazırkı vəziyyətindən göründüyü kimi, inhisarsızlaşdırma və azad rəqabət mühitinin formalaşmasına yönələn aktiv antiinhisar siayasəti respublikada həyata keçirilən iqtisadi islahatların mühüm istiqamətlərindən biri kimi çıxış edir. Xüsusilə, aparılan islahatlar gedişində qiymətlərin tənzimlənməsi antiinhisar fəaliyyətin formalaşmasına və sağlam rəqabətin inkişafına təkan vermişdir. Respublikada intiinhisar fəaliyyətin mövcud vəziyyətinin təhlili göstərir ki, bu fəaliyyətin formalaşmasında inhisarçıların qiymət siyasətinə ciddi nəzarət mühüm rol oynamışdır. Belə ki, nəticədə respublikada fəlaiyyət göstərən müəssisələrin mənafeələrini müdafiəsi təmin olunur.

Iqtisadiyyatda inhisarçılıq fəaliyyətinin tənzimlənməsinin səmərəli reallaşması və sağlam rəqabət mühitinin inkişafı məqsədi ilə bir neçə təklif irəli sürülür:

- Antiinhisar fəlaiyyətinin hüquqi bazasının formalaşması üçün antiinhisar Qanunvericiliyinin təkmilləşdirilməsi;

- Inhisarçiliq fəaliyyətnə nəzarətin sahələr və regionlar üzrə uyğunluğu təmin olunmalı,

- Təbii inhisarların tənzimlənməsində xüsusi siyasətin həyata keçirilməsi təmin edilməlidir;

Beləliklə, bütün bunları nəzərə alaraq qeyd edə bilərik ki, Ölkə iqtisadiyyatında antiinhisar qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Və bu öz nəticələrini sahibkarlıq və biznes fəaliyyətində, iqtisadiyyatın inkişaf səviyyəsində biruzə verir. Hazırda Azərbaycanda təbii inhisar subyektlərinin bəzi xidmətlərinə (enerji, qaz və su təvchizatı) tariflər. Tarif (Qiymət) Şurasının qərarları ilə təsdiq olunmuşdur. Qeyd olunan sahələrdə qərarları ilə təsdiq olunmuşdur. Qeyd olunan sahələrdə istehlakçı qruplarından alınacaq xidmət haqqının müəyyən edilməsi üçün sayğaclardan istifadə olunur. Enerji təchizatı sistemində tədricən plastik kartlar siteminə keçid başlanılmışdır. Bütün bunlar istehlakçı qrupları ilə təbii inhisar subyektləri arasında narazılıqların aradan qaldırılmasına və hesablaşmalarda şəffaflığın təmin olunmasına xidmət edir. Fikrimizcə, enerji, qaz və istilik təchizatı sistemində tariflərin müəyyən edilməsi üçün "Əhali" istehlakçı qrupu üzrə bəzi dəyişikliklərə ehtiyac vardır. Düşünürük ki, onlardan istifadənin bəzi istiqamətlərində, məsələn, yaşayış evlərinin və ofislərin (iş yerlərinin) qızdırılmasında onların qarşılıqlı əvəz olunma xüsusiyyətləri qiymətəmələgəlmədə (tariflərin müəyyən edilməsində) nəzərə alınmalıdır. Məsələyə bir daha aydınlıq gətirmək üçün "Əhali" istehlakçı qrupu üçün qeyd olunan xidmət tariflərini nəzərdən keçirək.

"Əhali" istehlakçı qrupu üçün:

1.Təbii qazın pərakəndə satış qiyməti, 1000 $m^3$ üçün – 100 manat;

2. Elektrik enerjisinin pərakəndə satış qiyməti, 1 kvt/saat üçün - 6 qəpik;

3. İstilik təchizatı tarifi, qızdırılan hər kv.metr üçün - 15 qəpik.

Heç kimə sirr deyil ki, hazırda respublikamızın iri şəhərlərində istilik təchizatının yarıtmaz olması üzündən yaşayış evləri və iş yerləri əsasən elektrik enerjisindən istifadə olunmaqla qızdırılır. Qeyd edək ki, fərdi yaşayış sahələrində həmin məqsədlə təbii qazdan istifadə olunur. Son 2-3 ildə

mərkəzləşdirilmiş istilik təchizatı sisteminin yeniləşməsi istiqamətində əhəmiyyətli irəliləyişlər olsa da mövcud tarif səviyyəsi onun maya dəyərindən təxminən 18 dəfə aşağıdır. Bu da müvafiq sahənin inkişafının dövlət büdcəsindən ayrılan subsidiyaların həcmindən asılılığını şərtləndirir. Təsəvvür edin ki, 20 kv. metr sahəsi olan otağı qızdırmaq üçün elektrik enerjisindən yaxud təbii qazdan mütəmadi istifadə olunması ay ərzində orta hesabla 15-20 manat ödəniş haqqı tələb etdiyi halda mərkəzləşdirilmiş istilik təchizatı xidmətinə görə 3,0 manat tələb olunur. Belə nəticəyə gəlmək olar ki, bu xidmət növünün tarifinin hazırda hətta 10 dəfə yüksəlməsi əhalidə heç bir narazılıq yaratmayacaqdır. Nəticədə əhalinin ximət xərcləri azalar, büdcə subsidiyalarına tələbat minimum həddə çatar, həmçinin təbii qazın, elektrik enerjisinin istehlakı həcmi aşağı düşər və bu sahələrdə ödəniş səviyyələrinin artımına nail oluna bilər

Yekun olaraq qeyd edək ki, yuxarıda göstərilən iqtisadi tədbirlərin əlaqəli və dolğun həyata keçirilməsi respublikada inhisarçılığın məhdudlaşmasında və azad rəqabət mühitinin formalaşmasında gözlənilən nəticələri verəcəkdir.

## Istifadə olunan ədəbiyyat siyahisi


1. Azərbaycan Respublikasının Konstitusiyası – Bakı 2005
2. Antiinhisar Fəaliyyəti Haqqında Qanun, “Hüquq Ədəbiyyatı” nəşriyyatı – Bakı 2005.
3. “Haqsız Rəqabət Haqqında Azərbaycan Respublikasının Qanunu” Rəsul Babayev, Oqtay Oruclu.
4. “Ekonomiksin Əsasları”, N.Qreqori Menkyu – Harvard Universiteti.
5. “Iqtisadiyyatda Inhisarçılıq” Cənan Məmmədov, Şirvan nəşr. Bakı – 2000
6. “Milli Iqtisadiyyatın Dövlət Tənzimlənməsi”. B.N. Allahverdiyev, S.K. Qafarov, M.Ə. Əhmədov. Bakı – 2007.
7. “Inflyasiyanın anatomiyası”. Tofiq Quliyev, Bakı – 2006.
8. “Iqtisadi Nəzəriyyə”. Oqtay Məmmədli, Fazil Ismayılov Bakı – 2007.
9. “Bazar iqtisadiyyatının əsasları” A.N.Tağıyev, Bakı – 2000.
10. “Inhisarizm” Əvəz Bayramov, Bakı – 2007.
11. “Iqtisadi nəzəriyyə” B. Osmanov, E. Kərimov, Bakı - 2005
12. “Iqtisadi nəzəriyyə” Azərbaycan Dövlət Iqtisad Universiteti, Bakı – 1999.
13. “Qiymətlərin dövlət tənzimlənməsi” A.C. Hüseynova, Bakı – 2001.
14. “Iqtisadi biliklərin əsasları” Gənc Iqtisadçılar Birliyi, Bakı – Göytürk 2000.
15. “Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika” Əvəz Bayramov. “Azərnəşr”, Bakı – 1997.
16. “Экономические циклы и теории” Вартенев С. Москва - 2006.
17. “Рынок: микроэкономическая модель” Долан Э.Дж., Линдсей Д.Е. Санкт-Петерbург 2002.
18. Tomas NEQL. “Qiymətəmələgəlmənin strategiyası və taktikası”. Bakı 2009.

19. A.D.Çudakov. “Qiymətlər və qiymətin əmələ gəlməsi”. Bakı 2011.
20. Есипов В.Е. «Ценообразование» - Санкт Петербург, 2010.
21. Липсиц Н.В. «Коммерческое ценообразование». Изд-во БЕК .
22. Слепов В.А. Николаева П.Е. «Ценообразование» учебное пособие.М.НД. ФБК-Пресс, 2000.

**Гахраманова Айсел Шаик кызы**

**«Ценообразование на субъектах естественной монополии»**

## РЕЗЮМЕ

Изучение особенностей и закономерностей формирования цен на продукцию естественной монополии также исследования форм и методов контроля за ними всегда имеет огромное значение для населения и государства. Посвящение данной магистерской диссертации к этой проблеме доказывает ее актуальность.

Магистерская диссертация состоит из введений, трех глав, выводы и предложений, также списка использованной литературы.

Во введении работы обоснован актуальность темы, определены предмет, метод, цель и задачи исследования. Здесь также указаны новизны исследовательской работы.

В первой главы работы изучена формы и историческое происхождение монополии, также роль естественной монополии в развитии национальной экономики.

Вторая глава данной магистерской диссертации посвящено к изучению законодательной базы деятельности субъектов естественной монополии и анализу механизма ценообразования на рынках продукции естественной монополии.

Последовательно последняя глава работы отражает в себя важные направления совершенствования государственного вмешательство и контроля в систему ценообразования в естественной монополии исходя из передовой внешней практики.

В заключении даны некоторые рекомендации и предложения которые имеют практическую значимость для субъектов естественной монополии.

**Gahramanova Aysel Shaik kizi**

**"Pricing in the subjects of natural monopolies"**

## SUMMARY

The study of the characteristics and laws of formation of prices for the products of natural monopolies also study forms and methods of control over them at all times is very important for the people and the state. The dedication of this master's thesis to the problem proves its relevance.

Master's thesis consists of an introduction, three chapters, conclusions and proposals, and a list of references.

In the introduction of the urgency of the work themes identified object, method, purpose and objectives of the study. It also shows the novelty of research. In the first chapter we studied the form and the historical origins of monopoly, natural monopoly role in the development of the national economy.

The second chapter of this master's thesis is devoted to the study of the legal framework of natural monopolies and the analysis of the pricing mechanism in the markets of products of natural monopolies.

Consistently the last chapter of the work reflects the important directions of improvement of state intervention and control in natural monopoly pricing on the basis of advanced foreign practices.

In conclusion, given some of the recommendations and proposals which are of practical importance for the subjects of natural monopolies.

**Azərbaycan Dövlət İqtisad Universitetinin Magistratura Mərkəzinin II kurs, M-2812 saylı qrup magistrantı Qəhrəmanova Aysel Şaiq qızının "Təbii inhisar subyektlərində qiymətlərin əmələ gəlməsi" mövzusunda yerinə yetirdiyi magistr dissertasiyasının**

# REFERATI

***Mövzunun aktuallığı.*** Respublika iqtisadiyyatı, o cümlədən sənaye müəssisələri uzun illər inzibati amirlik metodları ilə idarə edilmişdir. Belə ki, sovet inzibati amirlik iqtisadiyyatında fəaliyyət göstərən təsərrüfat subyektlərinin iqtisadi məsuliyyəti və müstəqilliyi yox idi. Fəaliyyət göstərən bütün təsərrüfat subyektləri vahid mərkəzə, yəni müəyyən dövlət inhisarçı idarəetmə strukturuna tabe edilmişdir. Həmin dövrdə fəaliyyət göstərən təsərrüfat subyektləri iqtisadi maraq və sağlam, azad rəqabət prinsiplərindən tamamilə uzaqlaşdırılmışdır. Sənaye müəssisələri ancaq dövlət inhisarçı strukturlarının direktiv plan göstəricilərinin yerinə yetirilməsi kimi funksiyanı reallaşdırdılar. Inhisar istər iqtisadiyyat, istərsə də cəmiyyət üçün çox ciddi mənfi sosial-iqtisadi nəticələr doğurmuşdur ki, bu da post-sovet məkanında 80-ci illərdə yaranmış böhran vəziyyətinin başlıca səbəblərindən biri olmuşdur. Artıq imkanları məhdudlaşmış inzibati-amirlik yolu ilə iqtisadi səmərəliliyin tələb olunan səviyyəsini təmin etmək mümkün olmamışdır. Respublikamız tarixi - siyasi müstəqilliyini əldə etdikdən sonra qarşıda duran mühüm məsələlərdən biri milli iqtisadiyyatın formalaşması olmuşdur ki, bu da iqtisadi münasibətlərin özəyini təşkil edən mülkiyyət azadlığına, iqtisadi metodlarla idarə etməyə, iqtisadi məsuliyyətə və marağa, azad, sağlam rəqabətə və inhisarçılığın minimum səviyyəsinə əsaslanan

tənzimlənən yeni iqtisadi sistemə - bazar iqtisadiyyatına keçidə istiqamətlənmiş tədbirlər kompleksinin reallaşdırılmasını zəruri etmişdir. Hazırda həyata keçirilən sosial - iqtisadi islahatlar istehlakçıların dəyişən müasir tələbatına tez bir zamanda uyğunlaşan yeni təsərrüfat modelinin formalaşmasına yönəlmişdir. Respublikamızda bazar iqtisadiyyatına keçid inhisarçılığın minimuma endirilməsi, inhisarçılıq meyllərinə qarşı antiinhisar siyasətinin formalaşması və düzgün həyata keçirilməsi, azad rəqabət prinsipləri əsasında yüksək keyfiyyətli malla təmin edilmə səviyyəsi ilə birbaşa bağlıdır.

Inhisarçılığın aradan qaldırılması və rəqabətin müdafiəsi, ölkə iqtisadiyyatında səmərəli, sağlam, azad rəqabət mühiti yaradır ki, bu mühit müəssisələri bazar tələbatını yüksək keyfiyyətlə təmin edən istehsal formalaşdırmağa, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinə istiqamətləndirir.

***Problemin öyrənilməsi səviyyəsi.*** Qarşıya qoyulmuş problemin həlli ilə bağlı bir çox məsələlər iqtisadi ədəbiyyatda öz əksini tapmışdır. Bu, bir tərəfdən elmi-nəzəri materiallardan, o cümlədən tanınmış iqtisadçı alimlərin müəllifliyi ilə hazırlanmış dərsliklərdən, dərs vəsaitlərindən, digər tərəfdən rəqabət və inhisarçılıqla bağlı qanunvericilik aktları toplusundan ibarətdir. Qeyd etmək lazımdır ki, inhisarçılıqla bağlı problemlər prof. X.H.Kazımlının, prof. A.Ş.Şəkərəliyevin və prof. Ə.İ.Bayramovun əsərlərində daha geniş tədqiq olunmuşdur. Lakin təbii inhisar şəraitində qiymətlərin müəyyən edilməsi, tənzimlənməsi və idarə edilməsi üzrə kompleks tədqiqat işi yerinə yetirilməmişdir.

***Tədqiqatın predmeti və obyekti.*** Tədqiqat predmeti kimi seçilmiş qiymətlərin tənzimlənməsi yolu ilə inhisarlara nəzarətin əhəmiyyəti bir tərəfdən yeni iqtisadi şəraitdə antiinhisar tənzimlənmənin iqtisadi siyasətdəki rolu, digər

tərəfdən isə inhisarsızlaşdırma fəaliyyətinin təkmilləşdirməsi zəruriliyi ilə bağlıdır.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Tədqiqat mövzusunun başlıca məqsədi qiymətlər vasitəsi ilə inhisaçı fəaliyyətinin tənzimlənməsinin əsas istiqamətlərini müəyyən etməklə, onların reallaşması üzrə konkret tədbirlər sisteminin hazırlanmasından ibarətdir.

Qarşıya qoyulmuş bu məqsədə müvafiq olaraq aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- inhisarın mahiyyəti və onun formalarının araşdırılması,
- inhisarçı fəaliyyət və real bazar münasibətlərinin qarşılıqlı bağlılığının tədqiqi.
-inhisarçı fəaliyyətin sosial-iqtisadi nəticələrinin araşdırılması, və iqtisadi demokratiyanın qərarlaşması zəruriliyinin əsaslandırılması,
- inhisarın tənzimlənməsinin zəruriliyi və onun nəzəri əsaslarının müəyyən edilməsi,
- Azərbaycan iqtisadiyyatında antiinhisar tənzimlənmənin səmərəsinin təhlili və onun təkmilləşdirilməsinin əsaslandırılması.

***Tədqiqatın nəzəri-metodoloji əsası və informasiya bazası.*** Tədqiqatın nəzəri-metodoloji əsasını yerli və xarici ölkə alimlərinin inhisarçılıq və antiinhisar siyasət üzrə elmi əsərləri, Azərbaycan Respublikasının Qanunvericiliyi təşkil edir. Tədqiqatın informasiya bazası Respublika ərazisində fəaliyyət göstərən təbii inhisar subyektlərinin büllitenlərindən, Dövlət Statistika Komitəsinin materiallarından, internet saytlarından və digər materiallardan ibarətdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Təbii inhisar sahələrində inhisarlaşmanın qarşısının alınmasının iqtisadi cəhətdən səmərəsizliyi əsaslandırılmış;

- Təbii inhisarlara qarşı dövlət siyasətinin əsas variantları müqayisəli şəkildə təhlil olunmuş;
- İnhisarçılığın yumşaldılmasında qiymətlərdən istifadə variantları əsaslandırılmış;
- Təbii inhisar subyektlərinin istehsal etdikləri əmtəələrin (xidmətlərin) qiymətləri (tarifləri) arasında nisbətlərin tənzimlənməsi variantları araşdırılmış;
- Təbii inhisar subyektlərində qiymətlərin idarə edilməsi metodları əsaslandırılmışdır.

***Tədqiqatın təcrübi əhəmiyyəti.*** Dissertasiyanın nəticələrinin təcrübi həyata keçirilməsi əsasən inhisarçılığın aradan qaldırılmasında və ya yumşaldılmasında qiymətəmələgəlmə probleminin həllinə istiqamətləndirilmişdir. Tədqiqat nəticəsində əldə edilmiş elmi nəticələr müvafiq istiqamətdə çalışan tədqiqatçılar üçün mənbə və gələcək araşdırma mövzusu, qiymətlərin səmərəli idarə edilməsinə yönəldilən təkliflər isə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər üçün dəyərli yardımçı vasitə ola bilər.

***Dissertasiyanın quruluşu və həcmi.*** Dissertasiya işi girişdən, üç fəsildən, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyatdan (   adda) ibarət olmaqla tam həcmi    səhifədən ibarətdir. Dissertasiya işində    şəkil,    cədvəl və    qrafik göstərilmişdir.